QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 034 (5754) **20 fevral** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Qarabağ münaqişəsinin həllində həlledici sözü məhz Azərbaycan deyəcək"

*İlham Əliyev: "Bu gün dünyada "kim güclüdür, o da haqlıdır" prinsipi hökm sürür"*



Səh 3

"Azərbaycan ilə Türkiyə bu gün dünyada bir-birinə ən yaxın ölkələrdir"



2

YAP-ın qərargahında türkiyəli parlamentarilərlə görüş keçirilib



4

Siyavuş Novruzov: "Bəziləri ölkə başçısının atdığı addımları öz adlarına çıxmaq istəyirlər"



5

Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yaradılmasının 14-cü ildönümü qeyd edilib



5

Polad Bülbüloğlu:" Azərbaycanla Çeçenistan arasında dostluğu pozmaq çətindir"



6

Əli Asayev: "Respublikalarımız üçün ən ağır və faciəli vaxtlarda biz həmişə bir-birimizi dəstəkləmişik"



6

6

"Azərbaycan Prezidenti bu Fərmanla "çoxillik həllolunmaz problem"ə son qoydu"



6

Bəhruz Quliyev: "Milli xəyanətkarlar bundan sonra da fiaskoya uğramaqda davam edəcəklər"



11

"Freedom House" barədə proqnozlar Macarıstanda da özünü doğrultdu

FREEDOM HOUSE

# “Azərbaycan ilə Türkiyə bu gün dünyada bir-birinə ən yaxın ölkələrdir”

*Prezident İlham Əliyev Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbərinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrımın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun böyük tərkibdə Azərbaycana səfərinin əlaqələrimizin daha da genişləndirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini ifadə etdi. Azərbaycan ilə Türkiyənin bu gün dünyada bir-birinə ən yaxın ölkələr olduğunu deyən Prezident İlham Əliyev dövlət başçıları səviyyəsində keçirilən görüşlərin və müxtəlif səviyyəli qarşılıqlı səfərlərin dostluğumuzun daha da möhkəmlənməsi və iş birliyi üçün yeni sahələrin müəyyən edilməsi baxımından önəmli olduğunu dedi. Keçən il Rəcəb Tayyib Ərdoğanla həm Türkiyədə, həm Azərbaycanda və eyni zamanda, beynəlxalq tədbirlər çərçivəsində görüşlərini məmnunluqla xatırlayan dövlətimizin başçısı Türkiyə Prezidentinin iştirakı ilə Bakı şəhərinin azad edilməsinin 100 illiyinə həsr olunmuş hərbi paradda Azərbaycan və Türkiyə əsgərlərinin təntənəli keçidini dostluq və qardaşlıq bayramı kimi dəyərləndirdi. Prezident İlham Əliyev ötən ilin ölkələrimiz üçün eyni zamanda önəmli enerji layihələri olan TANAP-ın və “STAR” neft emalı zavodunun açılışı ilə də yadda qaldığını dedi.

Türkiyə Böyük Millət Məclisinin deputatı, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım nümayəndə heyətini qəbul etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirərək, Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarını Prezident İlham Əliyevə çatdırdı. O, Türkiyə-Azərbaycan əlaqələrinin bu gün ən yüksək səviyyədə olduğunu qeyd edərək, xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini böyük ehtiramla xatırladı. Türkiyəli qonaq qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə bu gün Azərbaycan beynəlxalq aləmdə böyük nüfuz qazanıb və sürətli inkişafa nail olub. O, rəhbərlik etdiyi Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun ölkələrimiz arasında dostluq və qardaşlıq əlaqələrinin bundan sonra daha da möhkəmləndirilməsi işində səylərini əsirgəməyəcəyini vurğuladı.

Dövlətimizin başçısı Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə Prezidentinə çatdırmağı xahiş etdi. Sonda xatirə şəkli çəkdirildi.

# “Azərbaycanda infrastrukturun yaradılması istiqamətində çox böyük layihələr reallaşdırılıb”

*Prezident İlham Əliyev Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbərini qəbul edib*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə (MOVE) Baş Direktorluğunun rəhbəri Henrik Hololeyi qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Henrik Hololey dövlətimizin başçısını ötən prezident seçkilərində qələbəsi münasibətilə təbrik etdi, bunu xalqın ölkədə sabitliyə və inkişafa göstərdiyi etimad kimi dəyərləndirdi. Avropa Komissiyasının Hərəkətlilik və Nəqliyyat üzrə Baş Direktorluğunun rəhbəri Henrik Hololey bu səfəri zamanı Azərbaycanın bölgələrində olduğunu və gördüyü inkişaf proseslərinin onda dərin təəssürat yaratdığını qeyd etdi, ölkəmizin turizm və digər sahələrdə böyük potensiala malik olduğunu vurğuladı. Qonaq, eyni zamanda, Bakıda səmərəli görüşlər keçirdiklərini bildirərək, Heydər Əliyev beynəlxalq aeroportunun və Azərbaycanda mülki aviasiya sisteminin texniki təchizatının yüksək səviyyədə olduğunu qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanda infrastrukturun yaradılması istiqamətində çox böyük layihələrin reallaşdığını vurğulayaraq, altı beynəlxalq hava limanının, beynəlxalq standartlara cavab verən avtomagistral yollarının, Ələtdə Bakı Beynəlxalq Dəniz Ticarət Limanının inşası və digər işlərin həyata keçirilməsi nəticəsində ölkəmizin mühüm beynəlxalq nəqliyyat qovşağına çevrildiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycanın Şimal-Cənub, Şərq-Qərb, Şimal-Qərb istiqamətlərində nəqliyyat daşımaları sahəsində mühüm rol oynayacağını qeyd edərək, perspektivlər nəzərə alınmaqla bu sahədə artıq konkret işlərin görüldüyünü dedi.

Görüşdə Azərbaycan ilə Avropa İttifaqı arasında münasibətlərin uğurla inkişaf etdiyi vurğulandı, ölkəmizdə müasir nəqliyyat infrastrukturunun yaradılmasının önəmi qeyd olundu, nəqliyyat sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

## Rəsmi xronika

Prezident İlham Əliyev bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında Fərman imzalayıb.

* * *

Prezident İlham Əliyev Fərid Rauf oğlu Şəfiyevin Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# "Qarabağ münaqişəsinin həllində həlledici sözü məhz Azərbaycan deyəcək"

*İlham Əliyev: "Bu gün dünyada "kim güclüdür, o da haqlıdır" prinsipi hökm sürür"*



***Hər bir xalqın dünyada tanınmasında, uğurlar əldə etməsində və təbii ki, dünyada cərəyan edən qlobal proseslərin öndə gedənlərinə çevrilməsində liderlərin xüsusi əhəmiyyəti mövcuddur. Çünki liderlik amili elə bir şəxsiyyətlərə aid olunur ki, onlar xalqın və dövlətin maraqlarını müdafiə etməklə yanaşı, həm də inkişaf etdirir. Artıq 15 ildən çoxdur ki, Azərbaycan xalqının etimadı əsasında ölkəyə rəhbərlik edən Prezident İlham Əliyev Ümummilli Lider Heydər Əliyevin siyasi kursunu şaxələndirərək, uğurla reallaşdırması nəticəsində, perspektiv baxımdan əhəmiyyətli nəticələrin əldə olunmasında öz uğurlu sözünü deyir. Sözsüz ki, istər daxili, istər xarici, istər sosial-iqtisadi, istərsə də digər sahələri əhatə edən bu yüksəlişin əsasında isə, əlbəttə ki, xalq-iqtidar vəhdəti dayanıb.***

Prezident İlham Əliyev Real TV-tə verdiyi müsahibəsində də bir çox faktorlara, o cümlədən, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması və bu problemin Azərbaycanın xarici siyasətində prioritet istiqaməti olduğunu söyləyib.

## "Əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev Azərbaycan Prezidenti olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi"

Dövlət başçısı, bütün çıxışlarında olduğu kimi, bu müsahibəsində də bir daha vurğulayıb ki, İlham Əliyev: "Əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev Azərbaycan Prezidenti olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi: "Bir daha demək istəyirəm ki, tam əminəm, əgər müstəqilliyimizin ilk illərində Heydər Əliyev Azərbaycan Prezidenti olsaydı, heç vaxt torpaqlarımız işğal altına düşməzdi. Tam əminliklə bunu deyirəm. Əfsuslar olsun ki, o vaxt Azərbaycana rəhbərlik etmiş şəxslər öz məsuliyyətini dərk edə, ölkəmizin maraqlarını qoruya bilməmişlər. Xüsusilə, 1992-ci ildə baş vermiş çevriliş nəticəsində hakimiyyətə gəlmiş AXC-Müsavat cütlüyü və onun xəyanətkar siyasəti işğalı şərtləndirən əsas amil olmuşdur".

Prezident İlham Əliyev onu da bildirib ki, Ulu Öndər Heydər Əliyevin siyasəti, Onun qətiyyəti, xalqın Ona olan inamı heç vaxt imkan verə bilməzdi ki, bizim torpaqlarımız işğal altına düşsün: "Dağlıq Qarabağ münaqişəsi və torpaqlarımızın işğalı, bir milyondan artıq qaçqın və köçkünün ağır vəziyyəti AXC-Müsavat cütlüyünün ağır mirasıdır".

## "Bu gün Azərbaycan həm danışıqlar masasında, həm də döyüş meydanında üstün mövqedədir

Prezident İlham Əliyev münaqişənin həllinin yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkün olduğuna da aydınlıq gətirib. Qeyd edib ki, dünyanın bir çox mötəbər aparıcı beynəlxalq təşkilatları da münaqişə ilə bağlı həqiqəti əks etdirən, bizim mövqeyimizi dəstəkləyən qətnamələr və qərarlar qəbul etmişlər: "Bu gün Azərbaycan həm danışıqlar masasında, həm də döyüş meydanında üstün mövqedədir. Biz, son illər ərzində, münaqişənin həlli üçün güclü hüquqi baza yaratdıq. Dünyanın bir çox mötəbər aparıcı beynəlxalq təşkilatları münaqişə ilə bağlı həqiqəti əks etdirən, bizim mövqeyimizi dəstəkləyən qətnamələr və qərarlar qəbul etmişlər - BMT-nin Baş Assambleyası, ondan əvvəl Təhlükəsizlik Şurası, ATƏT, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı və digər təşkilatlar. Avropa İttifaqı ilə Azərbaycan arasında imzalanmış Tərəfdaşlıq Prioritetləri sənədində ərazi bütövlüyümüz, suverenliyimiz, sərhədlərimizin toxunulmazlığı haqqında dəstək ifadə olunub. Yəni bu, münaqişə üçün hüquqi baza yaradır. Hüquqi baza ondan ibarətdir ki, Dağlıq Qarabağ, - bunu biz hamımız yaxşı bilirik, - Azərbaycanın ayrılmaz hissəsidir. Münaqişənin həlli yalnız və yalnız ölkəmizin ərazi bütövlüyü çərçivəsində mümkündür".

Dövlət başçısı, xüsusi olaraq, Azərbaycanın güclü iqtisadi potensiala malik olan güclü, qüdrətli ordusunun olduğunu və bu gün Azərbaycan Ordusunun dünyada güclü ordular sırasında yer tutduğunu deyib: "Bu gün Azərbaycan Ordusu dünyada güclü ordular sırasındadır. Bizim döyüş qabiliyyətimiz və imkanlarımız artır. Biz ordumuzu ən müasir texnika ilə təchiz edirik. Aprel döyüşləri bizim gücümüzü göstərdi. Ən əlverişsiz hərbi mövqelərdən əks-hücum əməliyyatı apararaq, biz strateji yüksəklikləri əldə etdik. Torpaqlarımızı işğalçılardan azad etdik. Bu gün Ağdərə, Füzuli və Cəbrayıl rayonlarında Azərbaycan bayrağı dalğalanır. Aprel döyüşləri bizim şanlı tarixi qələbəmizdir. Mən Lələtəpədə olanda, orada Azərbaycan bayrağını görəndə, qürur hissi keçirirəm. Hər bir Azərbaycan vətəndaşı qürur hissi keçirir. Bizim əsgər və zabitlərimiz əsl qəhrəmanlıq göstərmişlər".

## "Biz ümid edirik ki, bu danışıqların nəticəsi olacaqdır"

Dövlət başçısı Ermənistanın yeni rəhbərliyinin ziddiyyətli bəyanatlar verdiyini və bunun isə, Ermənistan üçün çətin durum yaratdığını qeyd edib: "Biz əlbəttə ki, bu ziddiyyətli və anlaşılmaz bəyanatları dərhal rədd etdik. O cümlədən, vasitəçilər də əlbəttə ki, belə bir mövqe ilə razılaşa bilməzdilər. Öz prinsipial mövqeyimizdə qalaraq, biz danışıqlar prosesinə sadiqik. Bu gün danışıqlar Ermənistan və Azərbaycan xarici işlər nazirləri arasında aparılır. Artıq bir neçə raund danışıqlar aparılıb. Biz ümid edirik ki, bu danışıqların nəticəsi olacaqdır. Ona görə danışıqların aparılması, əlbəttə ki, müsbət hal kimi qiymətləndirilə bilər. Bu, bir daha onu göstərir ki, Ermənistanın yeni rəhbərliyinin ilk mərhələdə bəyan etdiyi prinsiplər tamamilə qəbuledilməzdir".

## "Bu gün dünyada "kim güclüdür, o da haqlıdır" prinsipi hökm sürür"

"Bu gün dünyada "kim güclüdür, o da haqlıdır" prinsipi hökm sürür" deyən dövlət başçısı onu da qeyd edib ki, bu, yeni reallıqdır: "Biz bu reallığa hazır olmalıyıq. Dünya dəyişir və biz bu dəyişikliyə hazır olmalıyıq. Xoşbəxtlikdən biz öz iqtisadi və hərbi gücümüzü, uzun illərdir ki, artırırıq. Sanki özümüzü bugünkü vəziyyətə hazırlayırdıq və bu gün biz hazırıq. Ona görə güc amili həmişə gündəlikdə olub və olacaq. Biz bunu, nəinki bizim münaqişə və bir çox başqa münaqişələrlə bağlı da görürük. Ona görə biz müxtəlif imkanlardan istifadə edəcəyik və Azərbaycanın ərazi bütövlüyünün bərpası bizim əsas vəzifəmizdir. Azərbaycan vətəndaşları, bunu bilməlidirlər ki, bu, hər bir vətəndaşın əsas vəzifəsidir, dövlətin əsas vəzifəsidir. Biz bu istiqamət üzrə öz siyasətimizi bundan sonra da aparacağıq".

Bir sözlə, Azərbaycan Prezidentinin mövqeyi Real TV-yə verdiyi müsahibəsində də, bir daha göstərir ki, Azərbaycanın mövqeyi dəyişilməz olaraq qalır və Dağlıq Qarabağ münaqişəsinin həllində həlledici sözü də, məhz Azərbaycan deyəcək.

**RƏFİQƏ KAMALQIZI**

# “Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları”

*Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun məqaləsi müxalifət düşərgəsində çaxnaşma yaradıb*

***Cəmiyyətə özlərini müxalifət liderləri kimi təqdim etməyə çalışan AXCP sədri Əli Kərimli, Müsavatın keçmiş başqanı İsa Qəmbər, “Milli Şura”nın rəhbəri Cəmil Həsənli kimi xəyanətkarların Azərbaycanın milli və dövlətçilik maraqlarına zidd olan sövdələşmələrə getdiyini əks etdirən çoxsaylı faktlar və sübutlar mövcuddur.***

Bu faktları adıçəkilən şəxslərin susqunluqla qarşılamaları məsələlərin əsaslı olduğunu göstərir. Amma faktların açıqlanmasına baxmayaraq, müxalif partiya sədrləri öz bəd əməllərindən əl çəkmirlər, əksinə, məkrli fəaliyyətlərini daha da inkişaf etdirirlər. Bu isə, onların sifarişlə hərəkət etdiklərini və Azərbaycanın dünyada yerinin və rolunun möhkəmlənməsindən ciddi narahatçılıqlar keçirdiklərini nümayiş etdirib. Bu günlər Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun qələmə aldığı “Müxalifətçilik missiyası və Azərbaycanın milli maraqları” məqaləsində müxalifətin xalq və dövlətçilik maraqlarına zərbə vurmağa cəhdlər göstərməsi tutarlı faktlarla sübuta yetirilir.

### “Əli Kərimlini narahat edən yeniləşən və inkişaf edən Azərbaycandır”

Məqalədə qeyd olunur ki, Əli Kərimli öz liderinə xəyanət edərək, qazandığı “təcrübəni” indi də Azərbaycan dövlətinə qarşı istifadə edir: “Milli Şura” əhalinin rifahının yüksəldilməsi ilə bağlı hakimiyyətin atacağı addımlara dair sızan məlumatları əlində bayraq edib, siyasi xal qazanmağa cəhd göstərir. Əli Kərimli və ətrafı hakimiyyətin atacağı addımlara dair sızan məlumatlarla bağlı kampaniya təşkil edib, məsələni “öz əməyinin nəticəsi” kimi göstərməyə çalışır”.

Məqalədə əsaslı olaraq, vurğulanır ki, Azərbaycan Prezidenti İlham Əliyev hakimiyyətinin qazandığı hər bir uğur Əli Kərimli və bu tipli insanların siyasi iflasını sürətləndirir: “Yalnız “Milli Şura” kimi amorf qurum və onun başçıları üç-beş minlik mitinqlə hakimiyyəti qorxutduğunu düşünə bilər. Əli Kərimlinin hakimiyyətin islahatlarını üç-beş min adamın iştirak etdiyi 19 yanvar mitinqinin nəticəsi kimi qələmə verməsi populizm və ictimaiyyəti aldatmaq cəhdidir. Gənclər niyə öz karyera imkanlarını “bəlkə də qaytardılar” ümidi ilə yaşayan Əli Kərimlinin ətrafında, AXCP-nin sıralarında puç etməlidirlər? AXCP, “Milli Şura” kimi ölü təşkilatlar Azərbaycandakı ictimai-siyasi proseslərə heç bir müsbət dinamika gətirə



bilməz. AXCP-dən fərqli olaraq, YAP vətəndaşı hansısa ideologiya üçün vasitə görmür, öz fəaliyyətində “Dövlət vətəndaş üçündür!” şüarını rəhbər tutur. AXCP gəncləri dövlətə qarşı yönəltməyə çalışır, gənclər isə “Vətən! Dövlət! Millət!” deyib durublar”.

### “Prezident İlham Əliyev hakimiyyəti öz milli mənsubiyyəti və doğma Azərbaycanı ilə fəxr edən gənclik formalaşdırır”

Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov qələmə aldığı məqaləsində son 15 ildə Azərbaycanın qazandığı uğurların Ə.Kərimli və ətrafının yuxusunu ərşə çəkdiyini vurğulayır. Qeyd edir ki, Cənab İlham Əliyevin Prezidentliyi dövründə Azərbaycan iqtisadiyyatı 3,3, maaşlar 7, pensiyalar 9, valyuta ehtiyatları 24 dəfə artıb, işsizlik və yoxsulluq həddi 5 faizə düşüb. Əli Kərimli bundan narahatdır: “Əli Kərimli əhalinin kredit borcları üzərində ucuz şou düzəldəndə, heç hesablayıbmı ki, bəhs etdiyi 500 min insanın banklara, ümumilikdə, kredit borcu nə qədər edir və dövlət hazırda bu yükün altına girə bilərmi? Azərbaycan xalqı 1990-cı ilin əvvəllərində ölkə ərazisini “qızılla örtməyi” vəd edərək, onu aldadanları da yaxşı xatırlayır, verdiyi hər vədi bircəbircə yerinə yetirərək, Azərbaycan tarixinə qızıl hərflərlə yazılacaq möhtəşəm islahatları inamla davam etdirən lideri - İlham Əliyevi də görür və dəstəkləyir. Azərbaycanın gündən-günə güclənməsi, çiçəklənməsidir ki, Əli Kərimlini stress vəziyyətinə salır, onun isterik bəyanatlarına və açıqlamalarına səbəb olur. Çox maraqlı situasiyadır: dövlət başçısı şəhid ailələrinə kompensasiya ödənilməsi ilə bağlı Sərəncam imzalayır, minimum əməkhaqlarını 40 faiz artırır, tələbələrin təqaüdlərini yüksəldir, qaçqınlara müasir evlər verir, yeni iş yerləri yaradır, regionları yenidən qurur və abadlaşdırır, sahibkarlara kredit verilir, əhalinin aztəminatlı hissəsinin sosial müdafiəsi üçün ardıcıl təşəbbüslər göstərir, bir sözlə, sosial müdafiəni dövlət siyasətinin ən ümdə prioriteti elan edir və əməldə də bunun belə olduğunu sübut edir, amma nədənsə, Əli Kərimli yenə narazıdır”.

### Əli Kərimli kimi fərari xislətli adamlarda Vətən sevgisi olmayıb, olmayacaq da!

“Azərbaycan hakimiyyəti dünyaya “ASAN xidmət” inqilabının təcrübəsini yayır, Əli Kərimli isə Azərbaycana Suriyanın “inqilab təcrübə”sini idxal etmək istəyir” deyə vurğulayan Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov qeyr edib ki, Prezident İlham Əliyevin neqativ hallara qarşı barışmaz mübarizə aparması Əli Kərimli və onun ətrafını ittiham hədəflərindən, sözlərini kəsərdən və cəmiyyəti aldatmaq imkanlarından məhrum edir. “Milli Şura”nın feodal zehniyyətinə Azərbaycana Avropa Oyunlarının deyil, “köhnə qitədən” bəlli çevrələrin inqilab ixracı, Suriyada, Liviyada və s. ölkələrdə olduğu kimi, islam dünyasından silahlı radikal dini qrupların gəlişi, “Formula 1” avtomobilləri əvəzinə isə, Bakının küçələrində tanklar və topların irəliləməsi daha uyğundur: “Əli Kərimli bəlkə 102 məcburi köçkün düşərgəsini, 300 min məcburi köçkünün müasir yaşayışla təmin edilməsini, şəhid ailələrinə verilən 7 minə yaxın mənzili, müharibə əlillərinə verilən 6 mindən çox maşınıda 19 yanvar mitinqinin adına çıxasan?! 2018-ci ildə prezident seçkilərindən sonra İlham Əliyevin şəhid ailələrinə 11 min manat kompensasiya veriləcəyi ilə bağlı qərarını 19 yanvar mitinqinin nəticəsi kimi qələmə verən Əli Kərimli artıq reallıq hissini tam itirib. Lənkəranda bina çökəndə, Aran-da Kür daşanda, Zaqatalada, Şamaxıda zəlzələ olanda xalq öz Prezidentini onunla çiyin-çiyinə dayanmış görüb, əlini küræyində hiss edib. Xalq hər şeyi görür, Əli Kərimli kimilər isə kar və kordur! 2016-cı ilin aprel döyüşlərində Azərbaycan əsgərinin şanlı zəfərini aşağılayan Əli Kərimli kimi fərari xislətli adamlarda Vətən sevgisi olmayıb, olmayacaq da! Jurnalistləri hakimiyyətdən mənzil alıb satılmaqda ittiham edən Əli Kərimli Qərb dövlətlərinin büdcəsindən maliyyələşən KİV-ləri, beynəlxalq hüquq-müdafiə təşkilatlarını niyə vəsf edir?”

“Azərbaycan müxalifəti niyə belə zəif və perspektivsizdir?” deyə sual edən Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov faktlara və reallığa əsaslanaraq vurğulayır ki, çünki onlar Prezident İlham Əliyevin düşünülmüş, prinsipial milli siyasəti, dövlət başçısının müasir və qüdrətli Azərbaycan naminə açdığı yeni üfüqlər, vətəndaş təşəbbüskarlığına yaratdığı imkanlar qarşısında aciz vəziyyətdə qalmağa məhkumdurlar.

**RƏFİQƏ KAMALQIZI**

# YAP-ın qərargahında türkiyəli parlamentarilərlə görüş keçirilib







Dünən Yeni Azərbaycan Partiyasının Mərkəzi Qərargahında Türkiyə Respublikası Böyük Millət Məclisinin Türkiyə-Azərbaycan Parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüş keçirilib. SİA-nın verdiyi məlumata görə, tədbirdə Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov, millət vəkilləri Səyavuş Novruzov, Məlahət İbrahimqızı, Əhliman Əmiraslanov, Şəmsəddin Hacıyev, Ağalar Vəliyev iştirak edib.

Türkiyə tərəfdən isə Türkiyənin Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral, səfirliyin əməkdaşı, TBMM-nin üzvləri - Dostluq qrupunun rəhbəri, İstanbuldan seçilmiş deputat Şamil Ayrım, Dostluq qrupu rəhbərinin müavini, Konya deputatı Orhan Ərdəm, qrupun üzvləri - Ərzurum deputatı İbrahim Aydəmir, Kars deputatı Yunus Kılıç, Qaziantep deputatı Məhmət Ərdoğan, Iğdır deputatı Yaşar Karadağ və TBMM-nin əməkdaşı Türker Yenər iştirak ediblər.

Görüşdə çıxış edən Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov deyib ki, Türkiyə və Azərbaycanın həyata keçirdiyi birgə iqtisadi layihələr iki ölkənin qardaşlığını daha da gücləndirir. Türkiyə Azərbaycan vətəndaşlarının ən çox səfər etdiyi ölkədir: “Türkiyədən gələn hər bir qonaq Azərbaycan üçün əzizdir. Eyni hissləri biz Türkiyəyə gedəndə yaşayırıq. Türkiyə-Azərbaycan dostluğunun əsası Heydər Əliyevin zamanında qoyulub”.

Baş nazirin müavini qeyd edib ki, hazırda Türkiyə dünyanın ən güclü ölkələrindən birinə çevrilib: “Biz bundan qürur duyuruq. Türkiyə ilə yanaşı Azərbaycan da güclənir. İki ölkənin gücü onların möhtəşəmliyini daha da artırır. Güman edirəm ki, Türkiyə də Azərbaycanın inkişafından qürur duyur. Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin qarşısını almaq mümkün olmayacaq”. Ə.Əhmədov Türkiyədən daha çox vətəndaşların Azərbaycana səfər etmək istədiklərini də açıqlayıb. O bildirib ki, yerləşdiyi regionda narahatlıqlar olsa da, Türkiyə öz əhalisinin sabit durumda yaşamasını təmin edir.

İcra katibi əlavə edib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Tükiyənin göstərdiyi səylər ən böyük dəstəkdir. Görüşdə Türkiyə-Azərbaycan münasibətlərinin əhəmiyyəti qeyd edilib.

**Ceyhun Rasimoğlu**

# Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yaradılmasının 14-cü ildönümü qeyd edilib







***Xəzər dənizində Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsi üzrə xidməti-döyüş fəaliyyətinə başlanılmasının 26-cı və Dövlət Sərhəd Xidmətinin (DSX) Sahil Mühafizəsinin yaradılmasının 14-cü ildönümləri münasibətilə tədbir keçirilib. DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, tədbirdə Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev iştirak edib.***

Dövlət himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin rəisi, general-leytenant Əfqan Nağıyev dənizçi sərhədçilərin Xəzər dənizində dövlət sərhədinin mühafizəsi üzrə xidməti-döyüş fəaliyyətinə başlanılmasının 26-cı və DSX-nin Sahil Mühafizəsinin yaradılmasının 14-cü ildönümünü xoş ovqat hissi, yüksək əhval-ruhiyyə, xidmətdə qazanılmış uğurlar ilə qeyd etdiklərini bildirib.

Məruzəçi DSX Sahil Mühafizəsinin fəaliyyət göstərdiyi müddətdə dəniz sərhədlərimizin mühafizəsi sahəsində əldə etdiyi yüksək nailiyyətlər haqqında ətraflı məlumat verib. Tədbirdə çıxış edən Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev dənizçi sərhədçiləri təbrik edərək Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2005-ci il 18 fevral tarixli Sərəncamı ilə Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin yaradılması və 2008-ci il noyabrın 8-də Ali Baş Komandan tərəfindən regionumuzda bənzəri olmayan yeni bazanın istifadəyə verilməsi ilə ölkəmizin dəniz sərhədlərinin mühafizəsinin yeni mərhələyə qaldırıldığını bildirib.

Bildirilib ki, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin müəyyənləşdirdiyi milli sərhəd strategiyasını uğurla davam etdirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin 2013-cü il 11 sentyabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasının dəniz təhlükəsizliyi strategiyası"nın icrası üzrə yaradılmış DSX Sahil Mühafizəsinin gəmi inşası və təmiri mərkəzində inşa edilmiş "Tufan" və "Şahdağ" tipli 12 sərhəd gözətçi gəmisinə baxış məqsədilə dövlətimizin başçısının səkkiz dəfə Sahil Mühafizəsinin bazasında olması dəniz sərhədlərinin mühafizəsi məsələlərinə verilən xüsusi önəmin, bu sahəyə göstərilən ali diqqətin konkret təzahürləridir. Bu gəmilərin döyüş sıralarına qatılması sayəsində sərhəd sularında dövlət maraqlarımızın qorunması imkanları xeyli genişlənib, dəniz sərhədlərimizin etibarlı mühafizəsinin təşkilində yüksək nəticələr əldə olunub.

Vurğulanıb ki, 2018-ci il avqustun 12-də Xəzəryanı ölkələrin dövlət başçılarının V Zirvə toplantısında mühüm əhəmiyyət kəsb edən "Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiya"nın imzalanması dəniz sərhədlərimizin mühafizəsi üzrə xidməti fəaliyyətin yeni müstəvidə təşkil olunmasına şərait yaradıb. Dövlət Sərhəd Xidmətinin rəisi, general-polkovnik Elçin Quliyev Heydər Əliyev ideyalarına sadiq əsgərlər olan Azərbaycan sərhədçilərinin Sərhəd Mühafizəsinin 100-cü ildönümünü xidməti-döyüş fəaliyyətlərində qazanılmış yüksək nailiyyətlərlə qarşılayacaqlarına, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin etimadını yeni nailiyyətlərlə doğruldacaqlarına əminliyini bildirib.

Sonra xidməti-döyüş fəaliyyətində yüksək nəticələr əldə etmiş bir qrup hərbi qulluqçu təltif olunub. Tədbir iştirakçıları Dövlət Sərhəd Xidmətinin nümunəvi hərbi orkestrinin və incəsənət ustalarının ifasında maraqlı konsert proqramına tamaşa ediblər.

## Əli Əhmədov: "Türkiyədən gələn hər bir qonaq Azərbaycan üçün əzizdir"



"Türkiyə və Azərbaycanın həyata keçirdiyi birgə iqtisadi layihələr iki ölkənin qardaşlığını daha da gücləndirir". SİA-nın verdiyi məlumata görə, bunu Baş nazirin müavini, Yeni Azərbaycan Partiyasının Sədr müavini-İcra katibi Əli Əhmədov Türkiyə Böyük Millət Məclisinin Azərbaycanda səfərdə olan bir qrup üzvü ilə görüşündə deyib. YAP-ın Sədr müavininin sözlərinə görə, Türkiyə Azərbaycan vətəndaşlarının ən çox səfər etdiyi ölkədir: "Türkiyədən gələn hər bir qonaq Azərbaycan üçün əzizdir. Eyni hissləri biz Türkiyəyə gedəndə yaşayırıq. Türkiyə-Azərbaycan dostluğunun əsası Heydər Əliyevin zamanında qoyulub".

Baş nazirin müavini qeyd edib ki, hazırda Türkiyə dünyanın ən güclü ölkələrindən birinə çevrilib: "Biz bundan qürur duyuruq. Türkiyə ilə yanaşı Azərbaycan da güclənir. Bu iki ölkənin gücü onların möhtəşəmliyini daha da artırır. Güman edirəm ki, Türkiyə də Azərbaycanın inkişafından qürur duyur. Azərbaycan-Türkiyə qardaşlıq əlaqələrinin qarşısını almaq mümkün olmayacaq". Ə.Əhmədov Türkiyədən daha çox vətəndaşların Azərbaycana səfər etmək istədiklərini də açıqlayıb. O bildirib ki, yerləşdiyi regionda narahatlıqlar olsa da, Türkiyə öz əhalisinin sabit durumda yaşamasını təmin edir. O əlavə edib ki, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün Tükiyənin göstərdiyi səylər ən böyük dəstəkdir.

## Siyavuş Novruzov: "Bəziləri ölkə başçısının atdığı addımları öz adlarına çıxmaq istəyirlər"



"Bəzi insanlar ölkə başçısı tərəfindən həyata keçirilən layihələri, atılan addımları öz adlarına yazmağa çalışırlar. Əslində həmin şəxslər xalqı aldamaq üçün bu addımları atırlar". SİA-nın xəbərinə görə, bunu Milli Məclisin Komitə sədri Siyavuş Novruzov Parlamentin dünən keçirilən plenar iclasında çıxış edərkən deyib.

"Bilirsiniz ki, cənab Prezident seçildiyi gündən islahatların keçirildiyini bəyan edib. Ayrı-ayrı sahələrdə insanların təminatı ilə bağlı proqramlar hazırlanıb və həyata keçirilib. Lakin bəziləri insanları aldatmaq, ölkə başçısının atdığı addımları öz adlarına çıxmaq istəyirlər. Bu onların naşılığıdır. Hansı ki, həmin insanlar vaxtilə büdcəni talamaqla məşğul idildər",- deyə deputat söyləyib. Ötən gün ölkə başçısının iştirakı ilə Sumqayıtda zavodun açılış mərasimin keçirildiyini xatırladan S.Novruzov söyləyib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində yerlərdə emal müəssisələri açılır, çox böyük proqramlar, vergidə, gömrükdə islahatlar həyata keçirilir: "Vətəndaşlar atılan bu addımları müsbət qarşılayır. Bu addımlar kiminsə yürüş, piket keçirməsinin nəticəsi deyil. Həmin şəxslər əksinə, bu layihələrin həyata keçirilməsini istəmirlər".

## Xələf Xələfov: Xəzərin statusu barədə Konvensiya Xəzəryanı ölkələrin tarixində yeni səhifədir



Xəzər dənizinin hüquqi statusu barədə Konvensiyanın imzalanması Xəzəryanı ölkələrin tarixində yeni səhifədir. Bunu Nazirlər Kabineti Aparatının rəhbəri Xələf Xələfov Xəzər dənizi məsələləri üzrə Yüksək Səviyyəli İşçi Qrupunun birinci iclasında deyib.

O qeyd edib ki, Xəzəryanı ölkələr arasında dostluq və əməkdaşlıq, qarşılıqlı hörmət və etimad, eləcə də ölkələrin suverenliyinə hörmət münasibətləri mövcuddur:

"Bu sənədin imzalanması Xəzəryanı ölkələr arasında münasibətlərin daha da inkişafına xidmət edir. Əsas məqsəd hüquqi statusun qorunmasıdır". İşçi qrupunun fəaliyyətindən danışan X.Xələfov bildirib ki, qrupun əsas tapşırıqları ölkələr arasında əlaqələrin möhkəmləndirilməsi məsələlərinin müzakirəsidir: "İclas zamanı iştirakçılar işçi qrupunun iş prosedurlarını müəyyənləşdirəcək, Konvensiyanın hər bir ölkənin qanunvericiliyi əsasında təsdiqlənməsini müzakirə edəcəklər. Həmçinin Xəzər dənizində ərazi sularını müəyyənləşdirmək məqsədilə birbaşa çıxış xətlərinin qurulması metodikası müzakirə olunacaq".

## "Əldə edilən uğurlar müxalif düşərgəni qıcıqlandırır"



"Hər bir cəmiyyətin siyasi sistemi onun maraqlarını təmin etmək üçün funksional və institusional qurumlar yaratmaqla bunu milli məqsədlərə nail olmanın mexanizmi kimi müəyyənləşdirir. Beləliklə dövlət dediyimiz sosial təsisat siyasi sistem tərəfindən idarə olunan xüsusi aparata çevrilir. Bu prosesə cəmiyyəti təşkil edən ən müxtəlif siyasi və ideoloji dünyagörüşün daşıyıcılarının cəlb edilməsi də əslində cəmiyyətin hər bir üzvünü prosesin iştirakçısına çevirməklə onun potensialından milli maraqların həyata keçirilməsində istifadə etmək məqsədi daşıyır". Bunu SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, millət vəkili Hikmət Babaoğlu deyib.

Deputatın sözlərinə görə, ancaq hazırki mürəkkəb tarixi mərhələdə milli dövlətlərin öz maraqlarını müadfiə etməsi çoxsaylı təhdidlərlə üzüləşir və hər gün bir az daha çətinləşir: "Çünki tarixin amansız mübarizəsində hər xalq öz maraqlarını qorumalıdır və bu da gərgin rəqabət kontekstində baş tutur. Ona görə də qlobal aktorlar milli dövləti uzun və yorucu rəqabətdə taqətdən salmaq üçün onun öz daxili enerjisindən özünə qarşı istifadə edir. Məsələn ölkədaxili müxalifəti iqtidara qarşı qoymaqla hakimiyyəti zəiflədir və bunu öz maraqlarını təmin etmək üçün bir alətə çevirir. Azərbaycanın həyata keçirdiyi müstəqil siyasət və aparılan islahatlar ölkəmizi daha da güclü etdiyi üçün bu rəqiblərimizi ciddi şəkildə narahat edir. Son aylarda müxalifətin fəallaşmasında məhz bu kontekstdə nəzərdən keçirilməli olan hadisədir. Əslində sağlam məntiq onu tələb edir ki, ölkənin inkişafı müxalifəti məmnun etsin ancaq bizdə isə bunun tərsi baş verir. Əldə edilən uğurlar müxalif düşərgəni qıcıqlandırır.

Azərbaycan Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Müxalifətçilik missiyası və Azərbaycanın maraqları" adlı məqaləsində məhz bu problemi analiz edərək ən son siyasi tariximizdə baş verən hadisələr kontekstində belə yanaşmanın səbəblərini çoxsaylı arqumentlərlə izah edir. Bəlli olur ki, Azərbaycanda müxalifətçilik bir çox hallarda milli məqsədlərə xidmət edən missiya deyil, tam əksinə milli marqlarımıza zərbə vuran alət kimi çıxış edir. Doğrudan da Əli Kərimli və onun kimi xüsusi missiya yerinə yetirən bir qrup marginalın fəaliyyəti xalqımızın maraqlarına hesablanmış siyasi fəaliyyətdən daha çox bizə qarşı olanların maraqlarının qorunmasi kimi qiymətləndirilə bilər. Diqqət etsək görəcəyik ki, bu müxalifətçilik uğurları qəbul etməyən, milli inkişafa qısqanclıqla yanaşan, xalqın yanında yox əgər belə demək mümkündürsə problemlərin yanında olan müxalifətçilikdir. Ona görə də siyasi aktiv fərdlər tərəfindən dəstəklənməyən, sosial siyasi elektoratı olmayan müxalifətçilikdir. Əgər belə olmasaydı, bütün dünyanın təqdir etdiyi inkişafımızı və ölkəmizdə aparılan çoxşaxəli islahatları tənqid yox təqdir edərdilər. Çünki milli marqlarımız bunu tələb edir. Düşünürəm ki, bu kimi məqamları prof. Əli Həsənov olduqca doğru analiz edərək Azərbaycanda milli maraqlarımız baxımından Prezident İlham Əliyevin siyasətinə alternativ siyasətin olmadığı qənaətinə gəlir və bu məsələdə tamamilə haqlıdır".

***Ceyhun Rasimoğlu***

## Bəhruz Quliyev: "Milli xəyanətkarlar bundan sonra da fiaskoya uğramaqda davam edəcəklər"



Milli xəyanətkarlar toplumu bundan sonrakı cəhdlərində də ciddi fiaskoya uğramaqda davam edəcəklər. Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənovun bu günlərdə yazdığı məqalə belə deməyə əsas verir ki, son vaxtlar müxalifətin tamamilə siyasətdən kənar və cəmiyyətə layiq olmayan davranışlarının qarşısı məhz xalq tərəfindən alınmalıdır. Daha dəqiq desək, xalq-dövlət birliyi dağıdıcı təfəkkürə malik müxalifətin uğursuzluğunu daha açıq şəkildə göstərir. Bu fikirləri açıqlamasında "Səs" Media Qrupunun rəhbəri, siyasi ekspert Bəhruz Quliyev deyib.

Siyasi ekspert bildirib ki, bu gün istər AXCP, istər "Milli Şura" kimi qurumlarda toplaşan "demokratlar" dövlətin xalq üçün gördüyü işlərdən, inqilabi islahatlardan ciddi şəkildə narahat olmağa başlayıblar. Əbəs deyil ki, istər buradakı siyasətbazlar, istərsə də onların xarici ölkələrdəki havadarları bu cür "fəallaşmaqla" Azərbaycan dövlətinin milli maraqlarına qarşı açıq-aşkar düşmənçilik mövqeyi sərgiləyirlər. Xalqın hakimiyyəti dəstəkləməsi, xalq-iqtidar birliyi radikal və dağıdıcı təfəkkürlü müxalifətin öz məğlubiyyətini etiraf etməsi ilə nəticələnir. Yəni, əldə edilən uğurlara qarşı müxtəlif cəhdlər olursa, bunun özü məğlubiyyət etirafı kimi qiymətləndirilməlidir.

B.Quliyev qeyd edib ki, istər Əli Kərimli, Cəmil Həsənli, istərsə də digər milli xəyanətkarlar toplumu xalq, dövlət vəhdəti qarşısında öz cılız siyasətlərini yürüdə bilməyəcəklər. Güclü dövlət, güclü xalq amili məhz bu cür düşünməyə zəmin yaradır. Bu, həm də bir reallıqdır ki, dövlətimizin əldə etdiyi nailiyyətlər, istər beynəlxalq arenada, istərsə də daxili siyasətdəki uğurlu nəticələr radikalizmin, milli xəyanətin və bu xəyanətdə iştirak edən bir qrup ünsürün qarşısını kəsməkdədir. Xalqımız dövlətinin və Prezidentinin yanında olmaqla xəyanətkarların, antidövlətçilərin fəallaşmasına imkan vermir. Xalqımız öz müdrikliyi ilə bundan sonra da dövlətimizin, Prezidentimizin ətrafında sıx birləşəcək. Buna heç bir şübhə yoxdur.

## Polad Bülbüloğlu:"Azərbaycanla Çeçenistan arasında dostluğu pozmaq çətindir"



"Ölkələrimiz - Rusiya və Azərbaycan, Çeçenistan və Azərbaycan arasında mövcud olan münasibətlər, əməkdaşlıq və dostluq son illərdə baş verən hadisələrlə sübut edilən ənənəvi tarixi əlaqələrdir. Bu onu göstərir ki, bizim dostluğumuzu pozmaq çətindir".

"Report" xəbər verir ki, bunu Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu azərbaycanlı və çeçen ağsaqqalları ilə görüşündə deyib.

"Təəssüf ki, münasibətləri pozmağa səy göstərən üçüncü qüvvələr var. Onlar cəhd edirlər, amma biz buna qarşı çıxacağıq və bu qarşıdurma rəhbərlərimizin iradəsinə, xalqlarımızın iradəsinə, çeçen və Azərbaycan xalqlarının təcrübədən keçmiş dostluğuna əsaslanır. Bu günlərdə bu məsələdə iştirak edən və təxribatın miqyasının artmasına imkan verməyən hər kəsə minnətdarlığımı bildirirəm. Bunu edənlər və olayı qızışdıranlar cəzalandırılmalıdır", - deyə səfir bu yaxınlarda Rusiyada azərbaycanlılar və çeçenlər arasında baş vermiş insidenti şərh edərkən bildirib.

## Musa Quliyev: "Prezident İlham Əliyev növbəti dəfə on minlərlə ailəni sevindirdi"



Azərbaycan Respublikası Prezidentinin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanı vətəndaşlarımızın mənzil və yaşayış şəraitinin yaxşılaşmasına o, cümlədən sosial rifahının inkişafına təsir edəcək. Fərmandan da göründüyü kimi, uzun müddətdir vətəndaşların mənzillərin sənədləşdirilməsində üzləşdikləri problem aradan qaldırılacaq.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Musa Quliyev deyib.

Deputat qeyd edib ki, bəzi çoxmənzilli binaların sakinləri kommunal xidmətlərdən istifadədə çətinliklərlə üzləşirdilər. Prezidentin imzaladığı Fərman əsasında vətəndaşlar qaz, su, işıq problemindən tam azad olacaqlar. Fərmanda müvafiq dövlət qurumlarına tapşırıqlar verilib. Heç bir əngəl olmadan bəzi çoxmənzilli binaların sənədləşdirilməsi işi həyata keçiriləcək. Vətəndaşların vaxt itkisi ilə üzləşməməsi üçün sənədlərin hazırlanması prosesi elektron qaydada aparılacaq. Bununla da Prezident İlham Əliyev daha bir "çoxillik həllolunmaz problem"ə son qoydu. Dövlətimizin başçısı növbəti dəfə on minlərlə ailəni sevindirdi.

Vətəndaşların mənzil şəraitinin yaxşılaşdırılmasının daim Prezident İlham Əliyevin diqqət mərkəzində olduğunu deyən deputat əlavə edib ki, məcburi köçkünlər, şəhid ailələri və əlillər üçün on minlərlə mənzillər tikilib istismara verilib. Bundan başqa, sosial evlər layihəsi uğurla həyata keçirilir ki, bu da xeyli sayda gənc ailənin mənzil sahibi olmasına yol açır. Prezidentin bugünkü Fərmanı olduqca böyük əhəmiyyətə malikdir. Bu, inqilabi bir qərardır.

## Əli Asayev: "Respublikalarımız üçün ən ağır və faciəli vaxtlarda biz həmişə bir-birimizi dəstəkləmişik"



Fevralın 14-də Moskvada, "Neolit" kafesində baş vermiş insident zamanı həlak olanların ailələrinə xalqım adından və şəxsən öz adımdan başsağlığı verirəm və zərər çəkmiş insanların tezliklə sağalmasını arzu edirəm. Bizi sarsıdan bu insident xalqlarımız arasında əsrlərin dərinliyindən qaynaqlanan dostluğun pozulmasında maraqlı olan üçüncü şəxslər tərəfindən provokasiyadır.

Bu sözləri AZƏRTAC-a müsahibəsində Azərbaycanda çeçen xalqının nümayəndəsi Əli Asayev bildirib.

O deyib ki, bizi dinlə bərabər, əsası əcdadlarımız tərəfindən qoyulmuş mədəni və əxlaqi dəyərlər birləşdirir. Respublikalartımız üçün ən ağır və faciəli vaxtlarda biz həmişə bir-birimizi dəstəkləmişik. Buna görə də bütün dünyada özümüzü bir regiondan olan qardaşlar kimi təqdim edirik.

Ə.Asayev deyib: "Moskvada baş vermiş və mənəvi-əxlaqi dəyərlərini itirmiş ayrı-ayrı şəxslərin yaramaz hərəkətlərinə gətirib çıxarmış son hadisə Azərbaycan ərazisində yaşayan çeçen diasporunu son dərəcə hiddətləndirib. Onlar unudublar ki, müsəlman və əslən Qafqazdan olduqları üçün ilk növbədə öz xalqlarının maraqlarını güdməlidirlər. Axı qafqazlıları həmişə ağsaqqallara, adət-ənənələrinə və köklərinə hörmət etdiklərinə görə qiymətləndiriblər. Xalqım adından indiki gənclərə müraciət edərək demək istəyirəm ki, şəxsi münasibətləri millətlərarası münaqişələr müstəvisinə keçirmək yolverilməzdir. Ümidvarıq ki, belə hadisə bir daha təkrar olunmayacaq. Axı Ulu Öndər Heydər Əliyev başda olmaqla bizim siyasi liderlərimiz həmişə Qafqaz xalqlarını vadid Qafqaz Evində birləşdirməyə çalışıblar".

## Vüqar Bayramov: "Azərbaycan Prezidenti bu Fərmanla "çoxillik həllolunmaz problem"ə son qoydu"



Azərbaycan Prezidentinin "Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında" Fərmanı uzun müddət müzakirə edilən və vətəndaşlarımız üçün aktual olan problemin həllinə hüquqi zəmin formalaşdırıb. Nəzərə alsaq ki, çoxmənzilli binaların istismarı prosesi ciddi şəkildə sadələşdirilir, bu, olduqca mühüm bir Fərmandır. Bir sözlə, Azərbaycan Prezidenti bu Fərmanla "çoxillik həllolunmaz problem"ə son qoydu.

Bu fikirləri AZƏRTAC-a açıqlamasında iqtisadçı ekspert Vüqar Bayramov deyib. Ekspert qeyd edib ki, 2019-cu il yanvarın 1-dək inşa edilmiş bütün çoxmənzilli binalarla bağlı Fövqəladə Hallar Nazirliyi tərəfindən rəyin hazırlanması və Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə verilməsi nəzərdə tutulur. Müsbət rəy alan binalar komitə tərəfindən istismara buraxılacaq və həmin mənzillərdə yaşayan vətəndaşlar çıxarışla təmin olunacaq. Fövqəladə Hallar Nazirliyi rəyi iki ay ərzində Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə təqdim edəcək. Komitə isə binaların yeddi gün ərzində istismara verilməsi ilə bağlı qərar qəbul edəcək. Göründüyü kimi, olduqca qısa zamandır. Yeni Fərman imkan verəcək ki, vətəndaşlar çoxmənzilli binalarda kommunal xidmətlərlə tam təmin olunsunlar.

Ekspert əlavə edib ki, bu gün xeyli sayda bina var ki, onlarla bağlı rəy olmadığı üçün qazla təmin edilməyib. Yeni Fərman bu kimi problemlərin aradan qaldırılmasına imkan verəcək. Bu proses bir ay müddətində həyata keçiriləcək. Vüqar Bayramov qeyd edib ki, bu Fərmanın imzalanması əhalinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasəti istiqamətində atılan daha bir önəmli addımdır.




# Dilimizə kimlər "qəbir qazır"?

MƏTLƏB
Metlebsalahov@mail.ru

***Hə, dilimizə "qəbir" qazanlar neçə illərdir ki, iş başındadırlar. Həm də hamının gözü qarşısında. Ona görə də, dilimizi qorumaq indiki zamanədə çox, bizə lap çox lazımdır. Əcnəbi leksikonların və bisavad aparıcıların efirlərimizi başına götürüb getdiyi bu günlərdə dilimizin keşiyində durmaq, sözün əsl mənasında, düşmənlə üzbəüz səngərdə durmağa bərabərdir. Məntiqlə, bunun xalq üçün nə demək olduğunu anlayanlara böyük məsələdir dediklərim.***

Dilimizi qorumaq deyəndə, həm Azərbaycan dilinin qrammatik qaydalarını, həm də öz dilimizi başımıza bəlalar açan sözlərdən qorumalıyıq. Hər iki mənada, dilimizə sahib olmaq hər şeydən önəmlidir bizim üçün. Həzrəti Əlinin "dilinizə, əlinizə və belinizə sahib çıxın" kəlamı indi lap aktualdır bizim üçün. Çünki biz yaşadığımız bu günlərdə nə dilimizə, nə də əlimizə sahib ola bilmirik. Dilimizə gələn min cür zərərli və mənaca əxlaqımıza, mənəvi dəyərlərimizə ziyan olan cümlələri ictimai müzakirələrdə belə dilə gətirməkdən çəkinmirik. Fikirlərimizi ata-baba kəlamlarımızla deyil, əcnəbi cümlələrlə anlatmağa çalışırıq. Sanki and içmişik ki, dilimizi bu şəkildə məhv edəcəyik!

Son bir neçə il ərzində payız göbələyi kimi artan yalançı, bisavad "fəlsəfə doktoru olan dilçi alimlərimizin" bu məsələdə günahı lap böyükdür. Dilimizi kor qoyanlara qarşı ilk səsini ucaltmalı olan bu "alimlər", efirlərdə özləri dilimizə qənim kəsilənlərlə bir cəbhədə yer alırlar. Özlərinin savadsızlıqlarını gizlətmək üçün də, dilin müdafiəsinə qalxmaq əvəzinə, həmin qaragüruhçulara züy tutmaqla məşğul olurlar. Bu, olduqca ürəkağrıdıcı faktdır.

Bir də xalqın ədəbi dilinə və mənəvi dəyərlərinə qarşı amansız "efir terroru" aparan lazımsız TV-lərin də dilimizin aşağılanmasında "qəhrəmanlığı" böyükdür. Bisavad gözəlçələri və qulağı sırğalı, "incə-mincə" oğlancıqları efirlərə dolduran TV rəhbərləri, açıq şəkildə dil qrammatik qaydalarının milyonlarla tamaşaçının gözü qarşısında məhv edilməsinə "fətva" verirlər.

Təsəvvür edəndə ki, efir gözəlçələri milyonların gözləri qarşısında Azərbaycan qrammatik dil qaydalarını kabluk ayaqqabılarının altına salıb "əzik-üzük" edərək, məhəlli və ara sözlərlə ədəbi dilimizi tarixin məzarlığına gömməyə çalışırlar, bax, onda ayılırıq ki, dilimizi qorumaq səngərdə torpağımızı ermənidən qorumaqdan daha ağır və çətin işdir.

İtirilən torpağımızı, Lələtəpə zəfərində olduğu kimi, nə vaxtsa geri qaytarmağa ümidimiz olduqca böyükdür. Amma efirlərdə "şikəst" edilib, daha sonra tamamilə məhv edilən dilimizi heç bir silahla, top-tüfənglə belə geri qaytara bilməyəcəyik. Beynimizdən və dilimizdən silinən heç nə geri qayıtmır, qardaşlarım! Bu fakt, milyon dəfə etiraf olunub. Acı həqiqət budur. Xoşuna gəldisə də, gəlmədisə də.

Amma əsas məsələ, fərd olaraq, ağız boşluğumuzda yerləşən kiçik çəkili dilimizə sahiblənməkdən daha çox, xalq olaraq neçə on əsrlərdir ki, qoruyub bu günə çatdırdığımız Azərbaycan dilinin qorunması barəsindədir. Yüz illərdən üzübəri böyük bir xalqın tarixin ən ağır dönəmlərindən qoruyub bu günə çatdırdığı Azərbaycan dili, hazırda əcnəbi hərflərin, bisavad, gədə-güdə səviyyəli TV aparıcılarının işğalı altındadır. Açıq-aşkar İŞĞAL! Gəlin dilimizə sahib çıxaq. Bu gün dilimizə sahib çıxmasaq, sabah o dilimizi artıq özümüz də tapmayacayıq. Necə ki, Topxana meşəsi məhv ediləndə, Qarabağa sahib olmadığımız kimi!

# Milli Məclisin plenar iclasında 27 məsələyə baxılıb

***Fevralın 19-da Milli Məclisin növbəti plenar iclası keçirilib. Milli Məclisin sədri Oqtay Əsədov gündəliyi təqdim edib. Bildirib ki, iclasın gündəliyinə 27 məsələ daxildir.***




Gündəliyin təsdiqindən sonra parlamentin gənclər və idman komitəsinin tərkibində dəyişikliklər edilməsi haqqında qərar müzakirə olunub. Dəyişikliyə əsasən Rəşad Mahmudov, Elşən Musayev və Cavid Osmanov komitənin üzvləri seçiliblər. Adil Əliyev və Rauf Əliyev komitənin üzvlüyündən çıxarılıb.

Mədəniyyət komitəsinin sədri Rafael Hüseynov üçüncü oxunuşda müzakirəyə çıxarılan "Kitabxana işi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi barədə məlumat verib. Qeyd olunub ki, təklif olunan dəyişiklik kitabxanaların elektron sistemə keçirilməsi məqsədilə hazırlanıb.

Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli Əmək və Cəzaların İcrası məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihələrini üçüncü oxunuşda təqdim edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə "Dövlət rüsumu haqqında" Qanunda edilən dəyişiklikləri üçüncü oxunuşda təqdim edib. Bildirilib ki, dəyişikliklər Azərbaycan Əqli Mülkiyyət Agentliyi tərəfindən göstərilən, "Dövlət rüsumu haqqında" Qanunda nəzərdə tutulan xidmətlərin və hüquqi hərəkətlərin, eləcə də bu hüquqi hərəkətlərə görə dövlət rüsumlarının məbləğinin təkmilləşdirilməsi məqsədilə hazırlanıb. Komitə sədri "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında", "Patent haqqında" qanunlarda nəzərdə tutulan dəyişikliklərin də eyni məqsədlə edildiyini diqqətə çatdırıb.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli "Azərbaycan Respublikasının Dövlət gerbinin istifadəsi qaydaları haqqında", "Azərbaycan Respublikasının Dövlət himninin istifadəsi qaydaları haqqında" qanun layihələrini üçüncü oxunuşda təqdim edib.

Sonra Əli Hüseynli "Azərbaycan Respublikası Milli Məclisinin komitələri haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini üçüncü oxunuşda təqdim edib.

"Əmanətlərin tam sığortalanması haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edən komitə sədri Ziyad Səmədzadə deyib ki, qanun layihəsi adıçəkilən qanunun qüvvəsinin (əmanətlərin tam sığortalanmasının) daha bir il müddətinə uzadılmasını nəzərdə tutur. Qanun 2016-cı il martın 4-dən qüvvədədir və onun qüvvədəolma müddəti 2019-cu il martın 4-də bitirdi. Qanunun qüvvəsinin daha bir il uzadılması bank sektorunun dəstəklənməsinə, bu sahədə dövlətin üzərinə ciddi öhdəliklər götürməsinə, nəticədə isə əhalinin banklara depozit qoymasının stimullaşdırılmasına xidmət edəcək.

Komitə sədri Hadi Rəcəbli "Əmək pensiyaları haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini müzakirəyə çıxarıb.

Sonra İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi müzakirə olunub. Aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov "Üzümçülük və şərabçılıq haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib.

Daha sonra "Azərbaycan Respublikasında dövlət dili haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanunun layihəsi müzakirə edilib. Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Hərbi vəzifə və hərbi xidmət haqqında", "Həbs yerlərində saxlanılan şəxslərin hüquq və azadlıqlarının təmin edilməsi haqqında" qanunlarda, Cəzaların İcrası və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır.

Komitə sədri Əli Hüseynli "Vəkillər və vəkillik fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda müzakirəyə çıxarıb. Qeyd edilib ki, dəyişikliklər vəkillik fəaliyyətinin təkmilləşdirilməsi məqsədini daşıyır. Əli Hüseynli, həmçinin İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi haqqında qanun layihəsini ikinci oxunuşda təqdim edib.

İclasda "Reklam haqqında" Qanuna ikinci oxunuşda dəyişikliklər edilməsi barədə qanun layihəsi də müzakirə olunub. Qeyd olunub ki, təklif edilən dəyişikliklər reklam qurğularının tikintisinə, quraşdırılmasına və konstruktiv dəyişikliklərin edilməsinə icazənin verilməsi prosedurunun sadələşdirilməsi qaydalarını müəyyən edir.

Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev "Gənclər siyasəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim edib.

"Azərbaycan Respublikası diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda təqdim olunub.

İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsini birinci oxunuşda təqdim edən Əli Hüseynli bildirib ki, dəyişikliklər "Daşınar əmlakın yüklülüyü haqqında" Azərbaycan Respublikasının 2017-ci il 2 may tarixli Qanununun icrası ilə əlaqədar təklif edilir. İclasda Mülki Prosessual Məcəlləsində və "İpoteka haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi də birinci oxunuşda müzakirə edilib.

Komitə sədri Ziyad Səmədzadə "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda müzakirəyə çıxarıb. Bildirib ki, qanun layihəsi dəqiqləşdirmə xarakterli düzəlişləri nəzərdə tutur.

Həmçinin Cinayət Məcəlləsində və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələri birinci oxunuşda müzakirə olunub. Ziyad Səmədzadə "Telekommunikasiya haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edərək deyib ki, qanun layihəsi telekommunikasiya operatoru (mülkiyyətində olan telekommunikasiya şəbəkəsi vasitəsilə qanuni əsaslarla telekommunikasiya xidmətləri göstərən hüquqi və fiziki şəxs) üçün yeni vəzifələrin müəyyən edilməsini nəzərdə tutur.

Elm və təhsil komitəsinin sədri İsa Həbibbəyli "Ümumi təhsil haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, sənəd 5 fəsil, 33 maddədən ibarətdir. Bu sənəd Azərbaycan Respublikası Konstitusiyasına uyğun olaraq, ölkəmizdə ümumi təhsilin təmin olunması sahəsində dövlət siyasətinin əsas prinsiplərini, ümumi təhsilin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edir. Qanun layihələri müzakirə olunaraq qəbul edilib. Bununla da Milli Məclis işini başa çatdırıb.

***Rəfiqə Kamalqızı***

# Azərbaycanda tələbə-gənclərə böyük diqqət var

*"Səs" qəzetində ali təhsil müəssisələrinin müəllim və tələbə nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirilib*



***Məlum olduğu kimi, Azərbaycan Respublikası Prezidenti İlham Əliyev doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə təqaüdlərin verilməsi haqqında Sərəncam imzalayıb. Dünən bu məsələ ilə bağlı "Səs" qəzetində ekspertlərin, ali təhsil müəssisələrinin müəllim və tələbə nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirildi. Dəyirmi masada Bakı Dövlət Universitetinin professoru Şahlar Əsgərov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin müəllimi Samir Baxşəliyev, Azərbaycan Dövlət Neft Sənayesi Universitetinin neft-mexanika fakültəsinin dekanı Əlihikmət Əhmədov, UNEC-in distant-qiyabi və əlavə təhsil mərkəzinin direktoru Səbuhi Tanrıverdiyev, UNEC-in tələbə rektoru Elmir Sadıqov, Turizm və Menecment Universitetinin dekanı Bahadur Bilalov, Azərbaycan Tibb Universitetinin tədris şöbəsinin müdiri Samir Cavadov, Bakı Slavyan Universitetinin tələbələri Nuranə Qasımova, Səfiyyə Mustafayeva, Azərbaycan Dövlət Neft Sənayesi Universitetinin tələbəsi Aysel Bədəlzadə, Turizm və Menecment Universitetinin tələbəsi Jalə Novruzova, Azərbaycan Tibb Universitetinin tələbəsi Pərvin Nəsirov iştirak edirdilər.***

Dəyirmi masanı giriş sözü ilə açan "Səs" qəzetinin əməkdaşı İlham Əliyev bildirdi ki, on ildən artıqdır ki, ənənəvi olaraq, ölkənin ictimai-siyasi və sosial həyatında böyük önəm kəsb edən və ictimai maraq doğuran məsələlər ətrafında "Səs" qəzeti tərəfindən təşkil olunan dəyirmi masalar cəmiyyətdə böyük maraqla izlənilməkdədir. Bu dəyirmi masalarda xalqımızın tarixi, milli-mənəvi dəyərləri, eləcə də, ictimai-siyasi, sosial məsələlər dövlət nümayəndələri, millət vəkilləri, ictimai təşkilat rəhbərləri tərəfindən müzakirə olunur: "Bildiyimiz kimi, hər bir ölkədə dövlətçiliyin, müstəqilliyin daha da möhkəmləndirilməsi, gələcəyin etibarlı təminatı intellektual səviyyəli potensial kadrların yetişdirilməsindən, onların aparıcı qüvvəyə çevrilməsindən çox asılıdır. Bu baxımdan, ölkəmizdə gənclərlə iş sahəsində görülən tədbirlər Azərbaycan gəncliyinin inkişafına təkan vermiş, onların cəmiyyətdə özlərini təsdiq etməsində böyük rol oynamışdır. Bu günlərdə Azərbaycanda təhsil sahəsində yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısını gücləndirmək məqsədi Azərbaycan Prezidenti Cənab İlham Əliyev tərəfindən imzalanan məlum sərəncamlar və Fərman dövlət gənclər siyasətinin məntiqi davamıdır. Doktorantlara, ali təhsil, orta ixtisas və ilk peşə-ixtisas təhsili müəssisələrinin tələbələrinə və şagirdlərinə verilən təqaüdlərin artırılması dövlətimizin gənclərə olan münasibətinin daha bir ifadəsidir".

"Səs" qəzetinin əməkdaşı:

- Şahlar müəllim, Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən ölkəmizdə həyata keçirilən təhsil siyasətinin davamı olaraq, tələbə gənclərin təqaüdlərin artırılması ilə bağlı imzaladığı sərəncamlar təhsilin inkişafına necə təsir göstərəcək?

## TƏHSİL PİLLƏLƏRİ ÜZRƏ TƏLƏBƏLƏRİN TƏDAÜDLƏRİNİN ARTIRILMASI GƏNCLƏRƏ STİMULDUR

ŞAHLAR ƏSGƏROV:

- Bu gün Azərbaycanda gənclər siyasəti dövlət siyasətinin mühüm tərkib hissəsidir. Gəncliyə göstərilən diqqət və qayğının nəticəsidir ki, Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir və siyasi, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayırlar. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində, bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. İstedadlı gənclərə dövlət qayğısı, gənclərin sağlamlığının qorunması və fiziki inkişafı, gənclərin məşğulluğunun təmin edilməsi, gənclər təşkilatlarına dövlət yardımı və s. gənclərə dövlət qayğısının ifadəsidir. Azərbaycan gənclərinin cəmiyyətin inkişafında rolunu artırmaq, ölkənin gələcək inkişafında iştirakını və məsuliyyətini yüksəltmək məqsədilə həyata keçirilən tədbirlər gənclərin cəmiyyətdə rolunu artırıb.

Dövlətimizin siyasətində gənclər məsələləri mühüm yer tutur. Yeni Azərbaycanın maliyyə-iqtisadi imkanları artdıqca, bütün sahələrin inkişafına kapital qoyulur və bu, çox müsbət nəticələr verir. Təbii ki, gənc nəsil bu prosesdən kənarda qalmayıb və gəncliyin inkişafı, yüksək intellektli, vətənpərvər gəncliyin yetişməsi üçün çox əhəmiyyətli layihələr həyata keçirilir. Bu günlərdə Azərbaycan Prezidenti İlham Əliyevin ölkədə yüksək ixtisaslı, peşəkar kadrların hazırlanmasına dövlət qayğısının artırılması və təhsildə yüksək nəticələr əldə edən tələbələrin təqaüd almaları üçün əlavə imkanların yaradılması məqsədilə imzaladığı sərəncamlar təqdirəlayiqdir. Təhsil pillələri üzrə tələbələrin tədaüdləri artırıldı. Doktorantura pilləsi üzrə elmlər doktoru hazırlığı üzrə doktorantlara - 300 manat, fəlsəfə doktoru hazırlığı üzrə doktorantlara - 180 manat və s. təyin olunub. Azərbaycan gəncliyi bu qayğının nəticəsində daha da fəal olmalı və bunu öz əməli fəaliyyətində göstərməyə çalışmalıdır.

## BÜTÜN İSTİQAMƏTLƏRDƏ DAVAMLI OLARAQ GÜCÜNÜ ARTIRAN DÖVLƏTİMİZİN QARŞISINDA DAYANAN HƏDƏFLƏR HƏR BİR VƏTƏNDAŞ ÜÇÜN ÇOX ÖNƏMLİDİR

BAHADUR BİLALOV:

- "Səs" qəzetinə belə bir mövzu ətrafında dəyirmi masa təşkil etdiyinə görə, təşəkkürümü bildirirəm. Bu gün müstəqil Azərbaycanda gənclər hərəkatı yeni bir mərhələyə qədəm qoyub. Beləliklə, gənclərimizin müstəqil platformada öz fikir və ideyalarını ifadə etmək şansları yüksəkdir. Artıq gənclərin qarşılarına öz ideyalarını müstəqil şəkildə həyata keçirmələri üçün heç bir məhdudiyyət qoyulmayıb. Azərbaycan gəncliyi ictimai həyatın bütün sferalarında aktiv fəaliyyəti ilə seçilir. Dövlətin gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanlar nəticəsində, bu təbəqə cəmiyyətin avanqard qüvvəsinə çevrilib. Gənclərin potensialından ölkənin mənafeyi naminə tam və düzgün istifadə olunması, onların faydalı məşğulluğunun təmin edilməsi, dövlət idarəçiliyi sistemində iştirakının gerçəkləşdirilməsi dövlət-gənclər siyasətinin əsasında dayanır.

Bu gün Cənab Prezident tərəfindən həyata keçirilən gənclər siyasəti yeni mərhələsini yaşayır. Yeni mərhələdə dövlət başçısı tərəfindən gerçəkləşdirilən gənclər siyasəti ən müxtəlif sahələri əhatə etməklə, geniş spektridir. Belə ki, bu siyasət gənclərin tərbiyəsi, sağlamlığı, təhsili, intellektual və mənəvi inkişafı, asudə vaxtının səmərəli təşkili, həmçinin, gənclərin cəmiyyət həyatının bütün sahələrində fəal iştirakı ilə bağlı məsələləri əhatə edir. Təbii ki, bu günlərdə tələbələrin təqaüdünün artırılması ilə bağlı Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Azərbaycan Respublikasının ali məktəb tələbələri üçün Prezident təqaüdünün təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 3 sentyabr tarixli 564 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərmanı ölkəmizdə təhsil sahəsində ən yüksək nəticələr əldə etmiş tələbələrə dövlət qayğısının gücləndirilməsini ifadəsidir. "Ali təhsil müəssisələrində təqaüd sisteminin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər barədə" Sərəncamına əsasən isə, ali təhsil müəssisələrində müvəffəqiyyət göstəriciləri əsasında dövlət hesabına maliyyələşən təqaüd yerlərinin sayı 2019-cu ilin martın 1-dən 16000 (on altı min) vahid artırılacaq və təqaüd alan tələbələrin sayının tələbələrin ümumi sayına olan nisbətinin hazırkı 31 faizdən 2019/2020-ci tədris ilində 45 faizə, 2020/2021-ci tədris ilindən başlayaraq isə, 50 faizdən az olmayan səviyyəyə çatdırılması təmin ediləcək. Bu gün inkişaf edən, bütün istiqamətlərdə, davamlı olaraq, gücünü artıran dövlətimizin qarşısında dayanan hədəflər hər bir vətəndaş üçün çox önəmlidir. Çünki Prezident İlham Əliyevin apardığı uğurlu siyasət birba-

# Azərbaycanda tələbə-gənclərə böyük diqqət var

*"Səs" qəzetində ali təhsil müəssisələrinin müəllim və tələbə nümayəndələrinin iştirakı ilə dəyirmi masa keçirilib*





şa vətəndaşın sosial rifahına yönəlib.

## DÖVLƏT BAŞÇISININ BU GÜNLƏRDƏ TƏLƏBƏLƏRİN TƏQAÜDÜNÜN ARTIRILMASI İLƏ BAĞLI İMZALADIĞI SƏRƏNCAMLARI VƏ FƏRMANI TƏLƏBƏ-GƏNCLƏRƏ AYRILAN DİQQƏTİN DAHA BİR TƏZAHÜRÜDÜR

NURANƏ QASIMOVA:

- Gənclər siyasəti hər zaman dövlət siyasətinin mühüm tərkib hissəsi olmuşdur. Gənclər dövlət qayğısını daim öz üzərlərində hiss edərək, nailiyyətləri ilə onlara göstərilən qayğını doğrultmağa çalışırlar. Prezident tərəfindən uğurla, yeni dövrün tələblərinə uyğun şəkildə davam etdirilməsi ölkəmizin siyasi-iqtisadi inkişafını, o cümlədən, sosial rifahının yüksəlişini təmin edir. Qətiyyətlə vurğulaya bilərik ki, Azərbaycan gəncliyi bu gün bütün tələbatlara cavab verən bir müasir gənclikdir. Gənclər unutmamalıdırlar ki, gənclik ölkənin gələcəyinin qarantı və təminatıdır. Gənclik üzərinə böyük bir məsuliyyət düşür, hər bir ölkədə gənclik böyük bir qüvvədir. Bu gün Cənab Prezidentin tələbə-gənclərə olan diqqət və qayğısı diqqətəlayiqdir. Dövlət başçısının bu günlərdə tələbələrin təqaüdünün artırılması ilə bağlı imzaladığı sərəncamları və Fərmanı tələbə-gənclərə ayrılan diqqətin daha bir təzahürüdür. Bu, artıq tələbələr arasında sağlam rəqabəti gücləndirəcək və onların yüksək təhsilə yiyələnmələrinə təsirini göstərəcəkdir. Mən bir tələbə olaraq, bundan ruhlanır və Cənab İlham Əliyevə minnətdarlığımı bildirirəm.

## PREZİDENTİN MƏLUM SƏRƏNCAMI TƏLƏBƏLƏRİN SOSİAL DURUMUNUN YÜKSƏLDİLMƏSİNDƏ ÖNƏMLİDİR

PƏRVİN NƏSİROV:

- Bildiyimiz kimi, indiyə qədər gənclər siyasətinə dair bir sıra dövlət proqramları qəbul olunmuşdur. Bu proqramlar ölkəmizdə gənclər üçün infrastrukturun yaradılmasından başlamış, onların xaricdə təhsilinə, yaradıcı və elmi fəaliyyətlə məşğul olan gənclərlə yanaşı, kütləvi idmanı təbliğ etməklə sağlam gəncliyin formalaşmasına töhfə verməklə çox geniş spektri əhatə edib. Dövlət proqramlarının nəticəsi olaraq, yeni-yeni gənc liderlər yaranmış və onlar bu və ya digər sahədə Azərbaycan dövlətinə, o cümlədən, gəncliyimizin inkişafına bu gün də töhfə verməkdədirlər.

"2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" gənclər siyasətinin daha da təkmilləşdirilməsini təmin edir. Bu gənclərin təhsil səviyyəsinin yüksəldilməsinin parlaq ifadəsi olaraq özünü büruzə verdi. Bütün bunların nəticəsidir ki, ötən dövr ərzində gənclər siyasəti və gənclərlə iş sahəsində bir sıra mühüm nəticələr əldə edilib. Mən bir gənc olaraq, ikinci ali təhsilimi alıram. Prezidentin məlum Sərəncamı tələbələrin sosial durumunun yüksəlməsində önəmlidir. Bu, tələbələri daha yaxşı nəticələr əldə etməyə, yaradıcılıq potensiallarının aşkara çıxarılmasına və səmərəli idarə edilməsinə, gənclərin intellektual səviyyəsinin yüksəldilməsinə, gənclərin sosial problemlərinin həllinə böyük zəmin yaradır.

## ÜMİDVARAM Kİ, AZƏRBAYCAN TƏLƏBƏ, MAGİSTR VƏ ALİMLƏRİNİN GÖRDÜKLƏRİ İŞLƏRİN SƏMƏRƏSİ XEYLİ ARTACAQ

SAMİR BAXŞƏLİYEV:

- Ulu Öndər Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra, ölkəmizdə milli-mənəvi dəyərlərimizə münasibətdə yeni mərhələ başlandı. Ümummilli Lider Heydər Əliyev, həmçinin, elm və təhsil sahəsində köklü və əsaslı dəyişikliklərin həyata keçirilməsini təmin etdi. Çünki elm və təhsil bilik, savad, müasirlik gənclik üçün gələcəyə açılan geniş qapılar və müstəqilliyin zəmanəti deməkdir. Ulu Öndər bütün fəaliyyəti dövründə, xüsusilə, elm və təhsilin inkişafına xüsusi qayğı göstərib. Bu da, təsadüfi deyildi. Çünki yaxşı bilirdi ki, müasir dövrdə elm və texnika, təhsil olmadan heç bir irəliləyiş əldə etmək mümkün deyil, eyni zamanda, dövlətin savadlı kadr potensialı da, məhz müasir təhsil və keyfiyyətli tədrislə yaradılır. Buna görə də, Azərbaycanın tərəqqisinin yeganə yolunu, məhz xalqın yüksək təhsil almasında, maariflənməsində, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsində görürdü.

Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin və təhsilin inkişafı istiqamətində də Ulu Öndər Heydər Əliyev siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təbii ki, keyfiyyətli orta təhsili, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparmaları qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedir. Elm və təhsilə göstərilən diqqətin nəticəsi olaraq, Prezident özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşıb, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir.

Prezident İlham Əliyev sosial-iqtisadi inkişafın yeni və mürəkkəb mərhələsində ölkənin intellektual gələcəyini təmin etməyin yolunu, məhz bu sahələrin inkişafında, onların müasir tələblər səviyyəsinə çatdırılmasında və həmin proseslərdə gənclərin böyük potensialından rasional istifadədə görür. Təsadüfi deyil ki, Azərbaycanda tələbə gənclərin və gənc alim və tədqiqatçıların bütün problemləri, o cümlədən, məişət qayğıları daim dövlətin diqqət mərkəzində saxlanılmışdır.

Son illər ölkənin ictimai-siyasi, elmi-mədəni həyatında gənclərin fəal iştirakı, tələbələrin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tarixi-mədəni irsimizə, milli-mənəvi və ümumbəşəri dəyərlərə hörmət ruhunda tərbiyə olunması, cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatında fəal iştirakı, elmi, intellektual və yaradıcı potensiallarının ümummilli məsələlərin həllinə yönəldilməsi müasir dövrün tələbi olaraq qalır.

Dövlət başçımızın 2015-ci il noyabrın 9-da AMEA-nın 70 illik yubileyinə həsr olunmuş yığıncaqdakı çıxışından da bir sitat gətirmək yerinə düşər: "... Biz çox istəyirik ki, elmi inkişaf üçün daha da gözəl şərait yaradılsın".

Son illərdə dövlət səviyyəsində görülən işlər, o cümlədən, haqqında bəhs etdiyimiz Prezident Fərmanında doktorantlara, ali təhsil, orta ixtisas və peşə təhsili müəssisələrində, həmçinin, Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində təhsil alan tələbələrə dövlət qayğısını artırmaq və onların sosial müdafiəsini daha da gücləndirmək məqsədilə atılacaq addımlar İlham Əliyevin növbəti humanist və uzaqgörən tədbiri kimi qiymətləndirilməlidir. Eyni zamanda, bu xeyirxah addım, onu deməyə əsas verir ki, yaxın gələcəkdə Azərbaycanda elm və təhsil sahəsində daha böyük nailiyyətlərə imza atılacaq. Hər bir alim, mütəxəssis, elm və təhsil təşkilatçısı, ümumiyyətlə, ziyalılar bundan sonra da daha böyük əzmkarlıqla elm və təhsil qarşısında duran, xalqın gələcək taleyini müəyyənləşdirən bu məsələlərin uğurla həlli üçün bütün potensiallarını elmin və təhsilin inkişafına sərf etməlidirlər. Prezident İlham Əliyevin dediyi kimi, "... Azərbaycan alimləri, ziyalıları ölkəmizin, cəmiyyətimizin elitasıdır. Onların dünyagörüşü, mövqeyi, hərəkətləri, fəaliyyəti Azərbaycanın inkişaf dinamikasını, inkişaf perspektivlərini xeyli dərəcədə müəyyən edir".

Bütün bunları nəzərə alaraq, demək istərdim ki, ölkəmizdə elm və təhsilin sürətli inkişaf templəri imkan verəcək ki, tez bir zamanda, Azərbaycan yeni ixtiraların və elmi nailiyyətlərin istifadəçisi yox, müəllifinə çevrilsin. Bu məsələdə isə, tələbə gənclərimizin və gənc alimlərin potensialı kimi, məsuliyyəti də böyükdür.

Sonda bir daha Prezident İlham Əliyevə bu kateqoriyadan olan insanların bütün problemlərini daim diqqət mərkəzində saxladığına, xüsusilə də, verdiyi bu humanist Fərmana görə, bütün tələbələr, gənc tədqiqatçılar və alimlər adından dərin minnətdarlığımı bildirirəm. Eyni zamanda, ümidvaram ki, Azərbaycan tələbə, magistr və alimlərinin gördükləri işlərin səmərəsi xeyli artacaq.

Elmi-tədqiqat layihələrinin uğurla həyata keçirilməsi, elm və təhsil sahəsində dünya miqyaslı və rəqabət apara biləcək elmi nəticələrin alınmasının reallaşdırılması və bu nəticələrin tezliklə iqtisadiyyatda, həyatda öz tətbiqini tapmasına yüksək səviyyədə xidmət yolunda bütün təhsil sistemində və elmi təşkilatlarda çalışanlara uğurlar diləyirik.

(Ardı var)

**Nəzakət ƏLƏDDİNQIZI**

səs

www.sesqazeti.az

facebook Ses Media Holding

20 fevral 2019-cu il

# Dövlət, atribut, ölkənin dəyərli insanları haqqında edilən bütün qeyri-etik, cinayət tərkibli çıxışlar anındaca yasaqlanmalıdır

*Milli Məclisin deputatı Elşən Musayevin yap.org.az-a müsahibəsi*



***-Elşən müəllim, Azərbaycanın dinamik inkişafı və beynəlxalq nüfuzunun mütəmadi olaraq artması bəzi dairələr tərəfindən qısqanclıq və narahatlıqla qarşılanır. Həmin anti-Azərbaycan dairələri ölkəmizə qarşı qarayaxma kampaniyası aparır, ikili standartlara əsaslanan qərəzli yanaşma nümayiş etdirirlər.Bununla bağlı fikirləriniz nədən ibarətdir?***

-Əvvəla, hər yerdə söylədiyim fikri sizin saytınız vasitəsilə bir daha bəyan edim: Azərbaycanın uğurları, cənab Prezidentin müdrik siyasiti nəticəsində reallaşan, nəzərəçarpan ikişaf yalnız və yalnız özümüzə, Azərbaycan vətəndaşına sərf edən məsələdir. Yəni, kənardan kimsənin marağında deyil ki, biz bu qədər inkişaf edək, böyük görünək, güclü olaq. Sadəcə, müəyyən qism kənarda durur, seyrçidir, səsini çıxarmır, bəziləri isə açıq qısqanclıq edir. Belə olan halda da anti-Azərbaycan qüvvələri müəyyən məqamlarda və məkanlarda yaranır, formalaşır, bəlli istiqamətlərdən dövriyyəyə buraxılır. İlk dəfədirmi? - Xeyr. Bu qüvvələr hər zaman olub. Ədalətsizlik də olub, qarayaxma da olub, ikili-üçlü standartlar da. Bəzən hətta bu standartlar iyirmili-otuzluya çevrilir.

Xaricdə xüsusi qüvvələr var ki, onlar açıq bir formada haqqı nahaqqa qurban verərək ölkəmizə qarşı müxtəlif üsul-formatlarla hücuma keçirlər. Zaman-zaman. Təbii, həmin hücumlar hər dəfəsində də dəf olunur, belələri heç bir qara niyyəti məhz Azərbaycanda həyata keçirə bilmirlər. Səbəb də sadədir: harada xalq və Prezident birlik var, həmin münasibətlərin arasına kimsə girə bilmir. Çünki girmək mümkün deyil. Cənab İlham Əliyev ləyaqətli liderdir, O Azərbaycanın bəxtidir, şansıdır. Belə bir şəxsiyyətin rəhbər olduğu ölkədə heç bir məkrli niyyəti, qara ideologiyanı, absurd ssenariləri həyata keçirmək mümkün deyil. Onun prinsipiallığı, yürütdüyü mükəmməl daxili və xarici siyasət bütün məqamlarda Azərbaycanı ancaq işıqlı gələcəyə aparıb, bundan sonra da aparacaq. O, öz vətəndaşının, xalqının qarantı olmaq missiyasını ən mükəmməl şəkildə daşıyan rəhbərdir. Prezident İlham Əliyevin yanında olmaq, Onu dəstəkləmək isə artıq bizlər üçün bir tək seçici missiyası deyil, həm də şərəf məsələsidir.

***-Anti-Azərbaycan dairələrin sifarişlərini yerinə yetirən antimilli ünsürlər, yəni ölkəmizdəki "beşinci kolon" nümayəndələri də Azərbaycanda sabitliyin pozulmasına çalışır, mitinq adı altında təxribatçı hərəkətlərə yol verirlər. Buna münasibətiniz necədir?***

-Bu fakt onu ifadə edir ki, azərbaycanlı olmağına baxmayaraq özünü bizdən zənn etməyən, xalqı da vətəni də ən xırda fürsətləri olsa hərraca çıxarmağa hazır olan qüvvələr var. Beləlləri üçün vətən təəssübkeşliyi deyilən anlayış yoxdur. Həmin qism bütün siyasi fəaliyyətləri boyunca kiməsə işləyib, sifarş yerinə yetiriblər. Onlara "5-ci kolon" da deyirik, "anti-milli ünsür" də, "sapı özümüzdən olan baltalar" da. Amma belələrinin əsl adı bilirsinizmi nədir? - Vətən xaini. Bax bu ad onlara daha gözəl yaraşır. Əksəriyyəti xaricdən oturub elə xaricdən də idarə olunanlardır. 5 qəpik qranta görə vicdanlarını, namuslarını, şəxsiyyətlərini qoyublar ortalığa. Bəsirət gözləri qapalı olan bu zavallılar fərqində belə deyillər ki, günbəgün hansı nifrəti qazanırlar, kənardan özlərinə qarşı necə ikrah yaradırlar. Burdakı nümayəndələri, fəaliyyətləri də də həmin ağılda və həmin qəbildə- eyni təfəkkür, eyni mexanizm, eyni xislət. Bekar olan kimi mitinq keçirirlər. Anlamırlar ki, mitinq - insanları cinayətə, qeyri-etik çağırışlara, destruktiv fəaliyyətə yönəltməməlidir. Mitinq - anarxiya, xaos elementi deyil. Mitinq - sivil formada ifadə azadlığının, fikri cəmiyyətə çatdırma mexanizminin bir qoludur. Amma bunlar mitinqlərdən, aksiyalardan da öz təyinatı üzrə istifadə etmirlər, edə bilmirlər. Çünki dediyim kimi: bu zərurətdən deyil, bekarçılıqdan doğan məsələdir.

***-Bu gün sosial şəbəkələrdə bəzi qruplar tərəfindən Azərbaycan xalqına və dövlətinə qarşı təhqiramiz, radikal çağırışların səsləndirilməsi cəmiyyətdə böyük narazılıq doğurur. Bu cür hallara qarşı qanunvericilik səviyyəsində hansı addımlar atılmalıdır?***

-Mən məhz bu məsələ ilə bağlı Milli Məclisin plenar iclasında da, media üzərindən də konkret təkliflərlə çıxış eləmişəm. Belə ünsürlər hansısa formada islah olunmalıdır. Bir vətəndaş kimi mənim arzum budur. Yolu nədir? Lap əvvəl birəbir hamısına cinayət işi qaldırılmalı, qiyabi də olsa istintaq aparılmalıdır. Daha sonra ektradisiya müqavilələri incələnməlidir ki, kimlə hansı müqavilə şərtlərimiz var və həmin şərtlərdən çıxış edərək neyləmək olar. Bax məsələn, o yaramaz Vidadinin məskunlaşdığı ölkə ilə ekstradisiya müqaviləmiz olmasa da, Konvensiya şərtlərindəki ümumi razılaşmaya əsasən, üstəlik qanunvericilik əsasında həmin cinayətkarı rahatca götürmək olar. Təbii, qarşı tərəf, onu verəcək ölkə burada başqa maraqlar güdməsə.

İkincisi, dəfələrlə qeyd etmişəm, bir daha vurğulayıram: Dövlət, atribut, ölkənin dəyərli insanları haqqında edilən bütün qeyri-etik, cinayət tərkibli çıxışlar anındaca yasaqlanmalıdır. Bunun üçün daha ciddi və fundamental qanunvericilik əsaslar yaratmalıyıq. Çünki zaman bunu tələb edir. Belə ünsürlərin video-bloqlarının, təhrikçi çıxışlarının, sosial şəbəkələrdəki hesablarının Azərbaycana çıxışı əngəllənməlidir. Kimsə internet məkanında bu iyrənc məxluqların iyrənc fikirləri ilə qarşı-qarşıya gəlməməlidir. Bizim bu fikirlərimizi bəzən kontekstdən çıxarıb internetin, sosial şəbəkələrin yasaqlanması ideyası kimi də təqdim edirlər. Xeyr, belə deyil. Əksinə, internetin gücü, resursları bir az da artsın, amma cinayətkarların həmin imkandan bəhrələnə bilməməsi şərti ilə! Tələbimiz və arzumuz məhz budur. Heç şübhəsiz, həmin anti-milli ünsürlər bir gün mütləq hüquqa, qanuna, istintaqa, məhkəmələrə təslim ediləcək. Amma həmin zamanı, müddəti oturub sakitcə gözləməməliyik. İslahın bir çox vasitələri var. Həmin vasitələr təxirəsalınmaz formada düşünülməli, tapılmalı və icra edilməlidir.

# "Rəngli inqilablardan başqa dövlətlər öz məqsədləri üçün istifadə etməyə çalışır"



"Ümumiyyətlə rəngli inqilablar əslində iki mərhələdə oldu. Birinci mərhələdə bu rəngli inqilablar keçmiş sovetlər məkanında oldu. Yəni bu hadisələr əvvəlcə Ukraynada oldu sonra isə Gürcüstana keçdi. Daha sonralar isə Qırğızıstanda oxşar proseslər baş verdi. Hadisələr başlayanda ali məqsədlərlə başladı. Amma sonra müəyyən dağıdıcı proseslər oldu". Bunu SİA-ya açıqlamasında politoloq Elxan Şahinoğlu deyib. Politoloqun sözlərinə görə, Gürcüstanda bu normal olsa da lakin Ukraynada vəziyyət indiyədək qeyri-sabitdir və müəyyən gərginliklər var: "Ukrayna özünün ərasizinin bir qismini itirdi. Sonra isə "Ərəb baharı" yaşandı və orada proseslər daha ardıcıl oldu. Həmin hadisələr Tunisdən başladı. Bildiyiniz kimi orada da hakimiyyət dəyişikliyi oldu. Eləcə də Liviyada, Misirdə qanlı hadisələr cərəyan etdi. İndinin özündə də Suriyada "Ərəb baharı" davam edir və hələ də müharibə bitməyib. Əslində "Ərəb baharı" və rəngli inqilablar böyük təlatümlər gətirdi. Yeni transsformasiya yolu ilə dəyişikliklər olsaydı, bu məsələlər qansız həll oluna bilərdi. Ona görə də əsas məsələ budur ki, bir çox ölkədə dəyişikliklər danışıqlar, dialoq yolu ilə də olsun. Belə rəngli inqilablardan başqa dövlətlər də öz məqsədləri üçün istifadə etməyə çalışırlar. Ona görə də bu cür təhlükələrdən hər bir dövlət özünü qorumaq istəyəcək".

# "Dəyişiklik 233 min nəfərin pensiyasında hiss olunacaq artıma gətirib çıxaracaq"



"Azərbaycanda pensiyanın minimum həcmi 116 manat idi. Hətta 80 manatdan da aşağı müavinət alan insanlar var idi. "Əmək pensiyaları haqqında" qanuna edilən dəyişiklik 233 min nəfərin pensiyasında hiss olunacaq artıma gətirib çıxaracaq". SİA xəbər verir ki, bunu Milli Məclisin dünən keçirilən plenar iclasında "Əmək pensiyaları haqqında" qanuna dəyişiklik layihəsinin müzakirəsi zamanı parlamentin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli deyib. Komitə sədri bildirib ki, 9 min insanın pensiyası 2 dəfə, 26 min nəfərin pensiyası 30 faiz artacaq: "Bütövlükdə isə əhalinin böyük bir qisminin pensiyası 38.5 faiz civarında artır. Bunun üçün 41 milyon manat vəsait nəzərdə tutulub. Belə addımlar mütəmadi atılacaq".

# Lavrov və ATƏT sədri Qarabağ münaqişəsini müzakirə ediblər



Moskvada Rusiya xarici işlər naziri Sergey Lavrov və ATƏT-in fəaliyyətdə olan sədri, Slovakiya xarici işlər və Avropa İttifaqı işləri üzrə nazir Miroslav Layçak arasında görüş keçirilib. SİA-nın "Moskva-Bakı" portalına istinadən verdiyi məlumata görə, danışıqlar ənənəvi olaraq Rusiyanın Xarici İşlər Nazirliyinin Qəbullar Evində baş tutub.

Görüşdə çıxış edən nazir Lavrov Slovakiyanın ATƏT-ə sədrliyinin problemli dövrə təsadüf etdiyini bildirib: "Dövlətlərin daxili işlərinə müdaxilələr, ticarət müharibələri var". Öz növbəsində, Layçak rus dilində həmkarını salamlayıb. Xatırladaq ki, ATƏT-ə sədrlik yanvarın 1-dən etibarən Slovakiyaya keçib.

# Azərbaycan meyvə-tərəvəz ixracını artırıb



Yanvarda ölkədən 43 milyon 429 min ABŞ dolları dəyərində 47 min 393 ton meyvə-tərəvəz ixrac olunub. Dövlət Gömrük Komitəsindən bildirilib ki, bu göstərici ötən ilin eyni ayı ilə müqayisədə 8,5 milyon dollar və 13 min 453 ton çoxdur. Keçən ay meyvə-tərəvəz ixracının ölkənin ümumi ixracındakı payı 3,39 faiz təşkil edib.

# Fevralın 26-sı ümumtəhsil müəssisələrində ilk dərslər Xocalı soyqırımına həsr ediləcək




"Təhsil müəssisələrində Xocalı soyqırımının iyirmi yeddinci ildönümünün keçirilməsi barədə" Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) tədbirlər planı təsdiqlənib. BŞTİ-dən AZƏRTAC-a bildirilib ki, tədbirlər planında ümumtəhsil müəssisələri və uşaq-gənclər inkişaf mərkəzlərində fevralın 26-sı ilk dərslər Xocalı soyqırımına həsr ediləcək. Həmçinin "Xocalıya gedən yol" mövzusunda mühazirə, toplantı, dəyirmi masa və konfransların keçirilməsi nəzərdə tutulur. Bundan əlavə, "Xocalı faciəsi uşaq yaradıcılığında" mövzusunda bədii qiraət gecələri, məktəblilərin esse və inşa yazılarının təqdimatı, əl işlərindən ibarət sərgilər təşkil olunacaq. "Xocalı harayı" mövzusunda ədəbi-bədii kompozisiyalar, sənədli və bədii filmlər nümayiş etdiriləcək. Xocalı soyqırımından bəhs edən divar qəzetləri, bülleten, fotostendlər və guşələr hazırlanacaq.

Təhsil müəssisələrinin internet resurslarına Xocalı soyqırımını əks etdirən materiallar yerləşdiriləcək, keçirilən tədbirlər kütləvi informasiya vasitələri və televiziya kanallarında işıqlandırılacaq. Təhsil müəssisələrinin müəllim və şagird kollektivi soyqırımı şahidləri ilə görüşəcək, "Ana fəryadı" abidəsini ziyarət edəcəklər. Qeyd olunan tədbirlərin keçirilməsi ölkəmizin müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş Vətən övladlarını yad etmək, böyüməkdə olan nəslə doğma Vətənə sevgi, məhəbbət hissləri aşılamaq, məktəblilər arasında milli vətənpərvərlik ruhunu yüksəltmək və Xocalı soyqırımı haqqında həqiqətləri çatdırmaq məqsədlərinə xidmət edir.

# YAP Sabunçu rayon təşkilatının gənclər birliyinin konfransı keçirilib

## Mehriban Abasquliyeva: "Gənclərimizin uğurlu fəaliyyəti göz önündədir"






**Dünən Yeni Azərbaycan Partiyası Sabunçu rayon təşkilatının gənclər birliyinin konfransı keçirilib.**

Tədbiri giriş sözü ilə açan YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva bildirib ki, Yeni Azərbaycan Partiyası günü-gündən gəncləşir və təşkilatın hər bir gənc üzvü partiyanın veteran üzvlərinə, ağsaqqallarına dəyər verməklə, onun fəaliyyətində yeni nəfəs gətirir. "Bu gün mən tədbirimizdə iştirak edən gənclərimizi gördükcə, onların hər birində çox gözəl əhval-ruhiyyənin olduğunu müşahidə edirəm" - deyə qeyd edən rayon təşkilatının sədri, bildirib ki, buna əsas səbəb dövlətimizin, dövlət rəhbərliyimizin gənclərə göstərdikləri diqqət və qayğı faktorudur: "Bu gün Möhtərəm Prezidentimiz, Yeni Azərbaycan Partiyasının Sədri Cənab İlham Əliyevin müəyyənləşdirdiyi uğurlu gənclər siyasətinin nəticəsidir ki, hər bir gənc bu siyasətin nəticəsində öz xoşbəxt gələcəyini qurur, təhsil alır, işləyir və cəmiyyətə töhfələrini verir. O cümlədən, Birinci vitse-prezident, Yeni Azərbaycan Partiyasının Sədr müavini Mehriban xanım Əliyevanın da bu istiqamətdəki fəaliyyəti hər bir gəncimizdə böyük ruh yüksəkliyi yaratmaqdadır. Bu gün, biz əminliklə deyə bilərik ki, gənclərimiz daim Onların nəzərləri altındadırlar".

Mehriban Abasquliyeva gənclərimizin sosial şəbəkələrdə də ölkəmizin və dövlətçilik maraqlarımızın qorunması, təbliği istiqamətində fəal olduqlarını deyərək, vurğulayıb ki, bəzilərindən fərqli olaraq, YAP-ın gənc fəalları sosial şəbəkələrə yalnız istirahət və əyləncə məqsədi ilə deyil, o cümlədən, Vətənimizin dünyaya inkişaf və tərəqqi reallıqlarını çatdırmaqla, o cümlədən, Azərbaycanı istəməyən daxili və xarici qüvvələrin qarşısına çıxaraq, onlara layiqli cavablar verməklə daxil olurlar və bunun uğurlu nəticələri də göz önündədir.

YAP Sabunçu rayon təşkilatının sədri partiyanın rayon təşkilatında təmsil edilən gənclərin də bir çox uğurlara imza atdıqlarını bildirərək deyib ki, bu, çox önəmli bir haldır. " Bu gün bizim sıralarımızda 10 min 200 nəfər birləşir. Bu, çox önəmli bir haldır və sıralarımız günü-gündən genişlənməkdədir. Sizin hər birinizin uğurunuz, bizim uğurumuzdur" deyə Mehriban Abasquliyeva vurğulayıb.

Tədbirdə çıxış edən Sabunçu rayon təşkilatının aparat rəhbəri Rəşad Abbasəliyev partiyanın yaranması tarixindən, Ulu Öndər Heydər Əliyevin bu istiqamətdə apardığı müdrik və qətiyyətli siyasətindən, xalqı və dövləti üçün xilaskarlıq missiyasını hansı çətinliklərlə həyata keçirməyindən bəhs edərək, bildirdi ki, məhz həmin vaxtlar Onun gənc yaşlarına təsadüf edirdi.

Çıxış edən Sabunçu rayonun icra hakimiyyəti başçısının müavini Rəna Fərəcova Prezident İlham Əliyevin gənclərə göstərdiyi diqqət və qayğıdan danışaraq, gənclərin də Onun ətrafında sıx birləşdiyini bildirib. "Biz, bu gün dövlətimizin gənclərə göstərdiyi diqqətin davamlı olduğunu görür və aparılan uğurlu siyasəti dəstəkləyirik" deyə Rəna Fərəcova bildirib.

YAP GB-nin sədri Seymur Orucov isə, bildirib ki, bu gün inkişaf edən, bütün istiqamətlərdə, davamlı olaraq, gücünü artıran dövlətimizin qarşısında dayanan hədəflər hər bir vətəndaş üçün çox önəmlidir: "Çünki Prezident İlham Əliyevin apardığı uğurlu siyasət birbaşa vətəndaşın sosial rifahına yönəlib. Bu mənada, öz ətrafında yüz minlərlə vətəndaşımızı birləşdirən Yeni Azərbaycan Partiyası da vətəndaşlarımızın ideya-siyasi tərbiyəsi ilə bağlı öz işlərini ən müasir səviyyədə qurur. Yeni Azərbaycan Partiyası Gənclər Birliyi olaraq, vəzifəmiz Prezident İlham Əliyevin apardığı dövlət siyasətini gənclərimizə düzgün şəkildə təbliğ etmək, partiyanın tövsiyə və tapşırıqlarını həyata keçirməkdən ibarətdir.

Əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan və bu gün Prezident İlham Əliyevin rəhbərlik etdiyi partiyamızın yüz minlərlə üzvü var. Bu isə, özlüyündə həmin böyük qüvvənin, gənclər qurumu olaraq, bizim üzərimizə əlavə məsuliyyətlər qoyur. O mənada ki, YAP-ın ölkəmizin ictimai-siyasi həyatında roluna uyğun olaraq, partiyanın Gənclər Birliyi də hər zaman fəallıq nümayiş etdirməli, qoyulan yolu davam etdirməlidir".

Sonra söz gənclərə verildi. Onlar çıxışlarında gənclərin uğurlu fəaliyyətindən və qarşıda dayanan vəzifələrdən bəhs edərək, bundan sonra da uğurlara imza atacaqlarını qeyd etdilər. Qeyd olundu ki, hər bir Azərbaycan gənci Yeni Azərbaycan Partiyasının fəaliyyətinə öz uğurlu töhfələrini verməklə ölkəmizin inkişaf və tərəqqisində fəallıq sərgiləməli, yeni-yeni nailiyyətlər qazanmalıdır.

Sonra YAP Sabunçu rayon təşkilatı gənclər birliyinin şura üzvləri, idarə heyətinin üzvləri və müavinləri səsvermə yolu ilə seçildilər.

Tədbirin sonunda bir qrup fəal mükafatlandırıldı, partiyanın yeni üzvlərinə vəsiqələr verildi.

**Rövşən NURƏDDİNOĞLU**

# "Nar" sosial şəbəkələrdən abunəçilərinə operativ müştəri xidmətləri göstərir

Ölkənin ən gənc mobil operatoru olan "Nar" abunəçilərinə Çağrı Mərkəzləri, nar.az internet səhifəsi ilə yanaşı, sosial media vasitəsilə də yüksəkkeyfiyyətli və operativ müştəri xidmətləri göstərməkdə davam edir. Belə ki, sosial şəbəkələr vasitəsilə daxil olan müraciətlərin 30%-ə qədəri 1 dəqiqə, 60%-ə qədəri isə 10 dəqiqə ərzində cavablandırılır. Ümumilikdə, "Nar"-ın bütün sosial şəbəkələrindən daxil olan sorğularına ortalama 6 dəqiqə ərzində cavab verilir. Son 1 il ərzində mobil operatorun sosial şəbəkələri vasitəsilə abunəçilər tərəfindən 218 mindən çox müraciət daxil olub.

Qeyd edək ki, "Nar" sosial şəbəkələr üzərindən tam müştəri xidməti göstərən ilk telekommunikasiya şirkətidir. Mobil operatorun abunəçiləri hər hansı sual yarandıqda çağrı mərkəzinə getmədən, alternativ olaraq mobil operatorun sosial media səhifələrində də yüksəkkeyfiyyətli xidmətdən (balans haqqında məlumat, şəbəkə/internet çətinliklərinin aradan qaldırılması, "Nar"-ın xidmətləri, tarifləri, internet paketləri haqqında ətraflı məlumat, nömrələr üzərində əməliyyat, gələn mesajlar haqqında ətraflı məlumat, texniki problemlərin həlli, endirim kampaniyaları, keçirilən müsabiqə və tədbirlərdə iştirak və s.) yararlana bilirlər. Belə ki, "Nar" abunəçiləri "Facebook", "Twitter" və "Instagram", eyni zamanda, elektron poçt və onlayn-çat vasitəsilə öz suallarını ünvanlayır və qısa müddət ərzində mobil operatorun sosial media komandası tərəfindən cavab alırlar. Bununla da abunəçilər vaxtlarına qənaət edərək istənilən zaman və məkanda "Nar" məhsul və xidmətlərinə dair sorğularına ətraflı cavab ala bilirlər. Mobil operatorun müştəri xidmətləri haqqında daha ətraflı məlumatı nar.az internet səhifəsindən əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını tədbiq edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7400-dən artıq baza stansiyası ilə 2,2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

# Bəzi çoxmənzilli binaların istismarına icazə verilməsi sadələşdirilir



Prezident İlham Əliyev bəzi çoxmənzilli binaların istismarına icazə verilməsinin sadələşdirilməsi haqqında Fərman imzalayıb. AZƏRTAC xəbər verir ki, Fərman istismarına icazə verilməmiş çoxmənzilli yaşayış binalarının sakinlərinin mənafelərini və Azərbaycan Respublikasının sosialyönümlü dövlət siyasətinin əsasını təşkil edən humanizm prinsiplərini əsas götürərək, həmin binaların istismarına icazə prosedurunu və müddətini optimallaşdırmaq, bu sahədə şəffaflığı və vətəndaş məmnunluğunu təmin etmək məqsədilə imzalanıb.

Fərmanda 2019-cu il yanvarın 1-dək bütün mərtəbələrinin, yan divarlarının və dam örtüyünün inşası daxil olmaqla tikinti-quraşdırma işləri başa çatmış və istismar edilən mənzilləri olan çoxmənzilli yaşayış binalarının (çoxmənzilli yaşayış binası komplekslərinin) istismarına icazə verilməsi qaydaları müəyyənləşdirilir.

Fərmanda qeyd edilir ki, Azərbaycan Respublikasında əhalinin yaşayış səviyyəsinin və sosial rifahının yüksəldilməsi dövlət siyasətinin başlıca prioritetlərindən biridir. Ölkənin sosial-iqtisadi inkişafı konsepsiyasına uyğun olaraq vətəndaşların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına hədəflənən məqsədyönlü və sistemli tədbirlər həyata keçirilir. Son illərdə Azərbaycan iqtisadiyyatının bütün sahələrində, o cümlədən inşaat sektorunda əhəmiyyətli inkişaf müşahidə olunur, şəhərsalma və tikinti sahələrində irihəcmli investisiyaların böyük hissəsi çoxmənzilli yaşayış binalarının tikintisinə yönəldilir. Bununla belə, ötən müddət ərzində bəzi çoxmənzilli yaşayış binalarında tikinti işləri şəhərsalma qanunvericiliyinin tələblərinə riayət olunmadan və ya sənədləşdirilməsində ciddi qüsurlar buraxılaraq, sakinlərinin hüquq və maraqları nəzərə alınmadan aparılıb ki, bu da, öz növbəsində, bir sıra hallarda həmin binaların rəsmiləşdirilməsini qeyri-mümkün edib. Fərmanda müvafiq qurumlara tapşırıqlar verilib.

# "Freedom House" barədə proqnozlar Macarıstanda da özünü doğrultdu

Bəzi beynəlxalq təşkilatların, o cümlədən Amerika hökuməti tərəfindən maliyyələşdirilən "Freedom House" təşkilatının fəaliyyəti barədə AZƏRTAC-da öz proqnozlarını bildirmişdi. Həmin kontorun sonuncu illik sorğusunda Macarıstanın reytinqinin azaldılacağı barədə proqnozlar da düz çıxdı. Belə ki, amerikalı qrantyeyənlərin fikrincə, Macarıstan indi yalnız "qismən azad" ölkə hesab edilir, guya bu ölkədə siyasi hüquqlar və vətəndaş azadlıqları pozulur, ona görə də indi Macarıstan "azad ölkə" kimi təsnif edilməyən "birinci Aİ ölkəsi" hesab olunur.

Baş nazir Orbanın "miqrasiya yükü"nü Avropa İttifaqının üzvü olan digər ölkələrlə bölüşmək məsələsində mövqeyini dəyişmədiyini nəzərə alsaq, bu da gözlənilən idi. "Freedom House" öz məruzəsinin xülasəsində gözdən pərdə asmaq üçün Macarıstanda siyasi oyun meydanında qeyri-bərabər şərait yaradılmasını tənqid edir. Sənəddə 2018-ci ilin seçki kampaniyasında hakim Fides partiyası tərəfindən səslərin üçdə iki hissəsini toplayaraq çoxluğu özü üçün bərpa etməsi sərt antimiqrant ritorika kimi xarakterizə edilir. Hesabatda deyilir: "Hakim koalisiya tərəfindən dövlət resurslarının səfərbər edilməsi, KİV-lərin qərəzli mövqeyi və müxalifətin reklam bazarından istifadə imkanına təsir göstərən məhdudiyyətlər nəticəsində müxalifətin Fidesə meydan oxumaq bacarığı əhəmiyyətli dərəcədə məhdudlaşdırılıb".

Sənəddə daha sonra qeyd edilir ki, 2018-ci il seçkilərinə qədər dövlət auditor idarəsi tərəfindən cərimə edilmiş altı müxalifət partiyasının buna etiraz etmək imkanları zəif olub.

"Freedom House" narahatlıq doğuran bir sıra başqa mühüm amilləri, o cümlədən hökumətin Mərkəzi Avropa Universitetinin status məsələsini həll etməkdən boyun qaçırmasını, bu universitetin faktiki olaraq ölkəni tərk etmək məcburiyyətində qalmasını, Konstitusiyaya düzəlişlər edilməsini vurğulayır. Həmin düzəlişlərə görə, bütün dövlət orqanları xristian mədəniyyətini müdafiə etməyə borcludurlar və yığıncaqlar azadlığının məhdudlaşdırılması üçün yeni hüquqi əsaslar yaradılır.

# İnsidenti təxribata çevirmək cəhdləri əbəsdir

***Rusiyada azərbaycanlılarla çeçenlər arasında baş verən qarşıdurmanı, sonda silaha əl atılmasını hər iki tərəf qətiyyətlə pisləyir və bu da, təsdiq edir ki, tarix boyu dinc və dostluq şəraitində yaşayan xalqlarımız məişət zəminində baş verən hadisəyə görə münasibətlərinə xələl gətirmək niyyətində deyillər. Çeçenistanın mətbuat və informasiya naziri Cambulat Umarovun bu insidentlə bağlı fikirlərinə biz də şərikik və həqiqətən də, hər hansı bir cinayət hadisəsini, xuliqanlığı sosial şəbəkələrdə, hansı formada şərh edilməsindən asılı olmayaraq, yaymaq istəyənlər çeçen və Azərbaycan xalqlarının yüzilliklərə söykənən əlaqələrini, dostluq və qardaşlıq münasibətlərini poza bilməz.***

Təbii ki, baş vermiş insidentə - bu toqquşmaya təsadüfi, sıradan bir hadisə kimi də baxmaq olmaz və bunun arxasında məkirli niyyətlər də görünür. Çeçenistanın mətbuat və informasiya nazirinin özünün də öz fikirlərində buna eyham vurması, bu insidenti yaymaq istəyənlər xalqlarımız arasında münasibətləri poza bilməz deməsi, təsdiq edir ki, çeçenlər özləri də üçüncü bir qüvvənin, məkrli niyyətlilərin varlığını qəbul edirlər. Əks halda, əsrlər boyu dostluq və qardaşlıq şəraitində yaşayan iki müsəlman xalqın bir-birinə qarşı qoyulması həm nəzəri, həm də praktik olaraq, mümkünsüzdür.

## Hər iki tərəfin rəsmiləri bu insidentin xalqlarımız arasında mövcud olan dostluq münasibətlərinə xələl gətirməyəcəyi qənaətindədirlər

Sevindirici haldır ki, Moskvada baş verən kriminal insident böyümədən sakitləşdi. Rəsmilərin müdaxiləsi, eyni zamanda, münasibət bildirməsi də, sözsüz ki, məsələnin qızışdırılmasının qarşısının alınmasında xüsusi rol oynadı və Azərbaycan Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənovun hadisəyə dərhal reaksiya verməsi, xüsusilə, yerində və zamanında atılan doğru addım oldu. Azərbaycan hökumətinin insidenti adi məişət zəminində baş vermiş kriminal hadisə kimi dəyərləndirməsi, eyni zamanda, belə halların Azərbaycan və çeçen xalqları arasında tarixən mövcud olan dostluq və qardaşlıq əlaqələrinə xələl gətirə bilməyəcəyi fikri insidentin böyüməməsini, əksinə, sakitləşməsini sürətləndirdi.

Çeçenistan tərəfi də, mətbuat və informasiya naziri Cambulat Umarovun şəxsində, Əli Həsənovun bəyanatına dəstək verdi və baş verənlərdən təəssüfləndiklərini qeyd etdi. Bəlli oldu ki, məişət zəminində baş verən hadisədən kimlərinsə, iki xalqın dostluğuna xələl gətirmək üçün istifadə edə biləcəyi təhlükəsini, hər iki tərəf gözəl başa düşür və qəbul edir. Moskvadakı Azərbaycan və çeçen icmalarının nümayəndələrinin hadisədən dərhal sonra bir araya gəlmələri, problemin zamanındaca həll olunması heç də təsadüfi deyildi və bütün bunlar münasibətlər barədə deyilənləri təsdiq edir.

Baş verən insidentlə əlaqədar hər iki tərəfin rəsmilərinin, tanınmışlarının bir çox fikirləri, xalqlarımız arasında dostluq-qardaşlıq əlaqələrinin qırılmazlığı, sarsılmazlığı barədə ifadələri xüsusi önəm daşıyır və bu baxımdan, diqqət mərkəzindədir. Bir sözlə, hər iki tərəfin rəsmiləri bu insidentin xalqlarımız arasında mövcud olan dostluq münasibətlərinə xələl gətirməyəcəyi qənaətindədirlər.

Çeçenistan İctimai Palatasının sədr müavini, Rusiya Jurnalistlər İttifaqının üzvü İslam Saydayev də Moskvada baş verən insidentin azərbaycanlılarla çeçenlər arasında münasibətlərə təsir etməyəcəyini düşünür. Qarabağ qazisi, 20 Yanvar əlili, Çeçenistanın Milli Qəhrəmanı və paytaxt Qroznının ilk fəxri vətəndaşı adını alan hər iki ölkənin fəxri, igid döyüşçü Arif Məhərrəmov Moskvada soydaşlarımızla çeçenlər arasında baş verən davadan təəssüfləndiyini, həmçinin, xalqlarımızın qardaş olduğunu, heç zaman da ayrılmayacaqlarını dilə gətirib. Çeçenistan İctimai Palatasının sədr müavini, Rusiya Jurnalistlər İttifaqının üzvü İslam Saydayev isə bildirib ki, məişət zəminində baş verən insident hər zaman bir-birini dəstəkləyən dostluq və qarşılıqlı anlaşma mühitində yaşayan azərbaycanlı və çeçenlər arasında münasibətlərə ziyan vurmayacaq.



Fevralın 16-da Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlunun, Azərbaycan Daxili İşlər Nazirliyinin nümayəndəsi, polis general-mayoru Əkbər Yusifovun baş vermiş insidentlə əlaqədar olaraq, Rusiya Daxili İşlər Nazirliyinin Moskva şəhəri üzrə Baş İdarəsinin rəisi, polis general-leytenantı Oleq Baranovla görüşü də təsadüfi deyil. Görüşdə yaranmış vəziyyətlə bağlı fikir mübadiləsinin aparılması, münaqişənin eskalasiyasının qarşısının alınması üzrə tədbirlərin müzakirə edilməsi, xüsusilə, vacib məsələdir. Polis general-leytenantı Oleq Baranovun vəziyyətin tam nəzarətə götürülməsi və bütün zəruri tədbirlərin görüləcəyi barədə Polad Bülbüloğlunu əmin etməsi də, təsdiq edir ki, hətta Rusiya tərəfi də insidentin ən tez zamanda sakitləşdirilməsinə çalışır və bu məişət zəminində olan dava-dalaşın xalqlar arasındakı münasibətlərə xələl gətirəcəyi ağla sığan deyil.

İnsident kimi dəyərləndirilən hadisədən dərhal sonra Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun öz "İnstagram" səhifəsində məşhur azərbaycanlı bloger Hüseyn Həsənovla fotoşəklini paylaşması da, bir çox məqamlara aydınlıq gətirir. Əslində, bu paylaşma Çeçenistan liderinin zamanında və layiqli bir reaksiyasıdır. Bu fotoşəklin Moskvadakı insidentdən dərhal sonra paylaşılması Ramzan Kadırovun çeçenlərlə azərbaycanlılar arasında baş vermiş münaqişə fonunda Azərbaycan xalqı ilə mehriban münasibətlərə nümunə göstərmək arzusu kimi qiymətləndirilir. Bu mehriban münasibətlər, eyni zamanda, səmimiyyət və dostluq rəmzi kimi də diqqət mərkəzindədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Çeçenistan Respublikasının başçısı Ramzan Kadırovun şəxsi dostluq münasibətləri və onların ötən ilin sonunda baş tutmuş görüşlərində bildirdikləri fikirlər bu səmimiyyətin, bu dostluğun bariz nümunəsidir.

## Proseslərin analizi azərbaycanlı-çeçen insidentində ən çox ermənilərin maraqlı olduğunu təsdiqləyir

Tarix boyu mövcud olan dostluq münasibətlərinin fonunda baş verən insidentdə əsas məqam kimi, azərbaycanlılarla çeçenlər arasında toqquşmaların yaşanmasında kimlərin maraqlı olması sualını önə çıxarır. Göründüyü kimi, hadisə məişət zəminində baş verib və sonda anlaşılmazlıq öz həllini tapıb. Belə olan halda, yaşanmış insidentdən sui-istifadə edərək, xalqlarımız arasında düşmənçilik toxumu səpmək istəyən qüvvələrin kimliyi diqqəti cəlb etməyə bilməz. "Azərbaycan-çeçen qarşıdurmasında kimlər maraqlı ola bilər" sualı hər kəsi düşündürür.

Özünü çeçen xalqının lideri kimi təqdim edən Qoca Mansur ləqəbli şəxsin çağırışı diqqət çəkməyə bilməz. Məsələ burasındadır ki, bir qrup çeçenin azərbaycanlılara silahlı hücumu da bu çağırışdan sonra həyata keçirildi və ən düşündürücü halda budur ki, Qoca Mansurun "azərbaycanlıları öldürün" çağırışı sosial şəbəkələrdə daha çox ermənilər tərəfindən tirajlanır. Erməni istifadəçi Alen Gulyanın bu videonu "Azərbaycanlılara ölüm!" şüarı ilə yayımlaması, digər erməni istifadəçilərin onun şüarına dəstək verməsi də təsadüfi ola bilməz. Rusiyanın erməniyönümlü saytlarının azərbaycanlılarla çeçenlər arasında münasibətləri kəskinləşdirəcək xəbərlər verməsi, "azərbaycanlıların çeçenləri təhqir etdiyini, buna görə də, cavabsız qalmamalı olduğunu" təbliğ etmələri məsələnin nə yerdə olduğunu tam şəkildə aydınlaşdırır.

Ermənilər sosial şəbəkələrdə də Moskvada azərbaycanlılar və çeçenlər arasında baş vermiş insidenti gərginləşdirməyə səsləyirlər. Erməni sosial şəbəkə istifadəçiləri, eyni zamanda, həmyerlilərini "maksimum dərəcədə" bu vəziyyətdən faydalanmağa çağırırlar. Arman Abovyan adlı istifadəçi yazır: "Deməli, uşaqlar, sizin, əlbəttə ki, bizim üçün xoş hadisədən xəbəriniz var, mən Moskvada azərbaycanlılar və çeçenlər arasında baş vermiş qarışıqlıqdan danışıram. Bununla əlaqədar qarşımızda hansı vəzifələr var? İlk öncə, münaqişənin sosial şəbəkələrdə daha da alovlanması üçün əlimizdən gələni edirik, ancaq bunun üçün erməni adlarından istifadə etmirik ki, bizi vəziyyətin gərginləşdirilməsində heç kəs ittiham edə bilməsin. Qarşıdurmanın hər iki tərəfi adından təhqiredici şərhlər yazın. Çox aydın və dəqiq addımlar atmalıyıq. Biz bu vəziyyətdən maksimum faydalanmalıyıq. Yeni qarşıdurma bizim üçün uğur olacaq, ancaq istənilən halda, bizim ən əsas vəzifəmiz nifrət və nifaq toxumlarını əkməkdir".

Proseslərin analizi azərbaycanlı-çeçen insidentində ən çox ermənilərin maraqlı olduğunu təsdiqləyir. Ermənilərin azərbaycanlı-çeçen insidentində maraqlı olmasının bir sıra ciddi səbəbi də danılmazdır. Əvvəla, Rusiyada azərbaycanlı icması tədricən güclənir və bu, Azərbaycanın da mövqelərinin güclənməsi deməkdir ki, bu mənzərə Ermənistanın Rusiyadakı maraqlarına tamamilə uyğun deyil. Digər tərəfdən, nəzərə alsaq ki, Moskvada çeçen icması erməniləri sevmir və zaman-zaman onlarla qarşıdurma yaşanır, belə olan halda, azərbaycanlıların Rusiyada digər millətlərlə, o cümlədən, çeçenlərlə dostluq münasibətləri də ermənilər üçün arzuolunmaz mənzərədir.

## Çeçenistan üçün Azərbaycanla münasibətlər strateji xarakter daşıyır və ölkələrimiz arasında əməkdaşlıq ildən-ilə genişlənir və möhkəmlənir

Qafqazın müsəlman xalqlarını, o cümlədən, çeçenləri və azərbaycanlıları uzun əsrlik ümumi tarixi-mədəni ənənələr bağlayır. Xalqlarımız həm çətin gündə bir-birinin yanında olub, həm də yaşadığımız müharibələr dönəmində bir-birinə pənah aparıb və dəstək olublar. Həm çeçenlər, həm də azərbaycanlılar zamanında deportasiyaya məruz qalıblar. Lakin tarixin bu sınaqları xalqlarımızın əzmini və iradəsini sarsıtmayıb. Azərbaycanla Çeçenistan arasında mövcud olan Qafqaz sıra dağları ölkələrimizi ayıran deyil, əksinə, birləşdirən coğrafiya olub.

Çeçenlər sayca az olmalarına baxmayaraq, dünya xalqları arasında qəhrəmancasına türklərlə yanaşı addımlayan toplumlardan biridir. Çeçenlərlə bizi bir sıra ortaq cəhətlər birləşdirir. Əvvəla, çeçenlər əsrlərdir türklərlə, azərbaycanlılarla yanaşı islam dinini sitayiş edirlər. Bizimlə bərabər eyni müqəddəs kitaba, eyni peyğəmbərə iman gətiriblər. Digər tərəfdən, çeçenlər də azərbaycanlılar kimi eyni regionun, ümumi Qafqazın tarixi və əbədi sakinləridir.

Onu da nəzərə almaq lazımdır ki, çeçenlər, əsasən, sufi nəqşibəndi təriqətinə mənsubdurlar. Bu təriqət isə, onlara Azərbaycanın Şirvan bölgəsindən yayılıb. Çeçenlərin və bütün Dağıstan xalqlarının vaxtilə tabe olduğu və qürur duyduğu böyük şəxsiyyət Şeyx Şamilin mürşidi belə İsmayıl Siracəddin Şirvani olub. Çeçenlər Türkiyə ilə də çox yaxındırlar və vaxtılə Osmanlının təbəəsi də olublar. Hiyləgər xislətlilər dərk etməlidirlər ki, bu bağlılığı inkar etmək mümkün olmadığı kimi, erməni hiylələsinin də nəticəsi ola bilməz.

Sovetlər dönəmində də xalqlarımız arasında bağlılıq özünü göstərib. Vaxtı ilə çeçen əsilli SSRİ xalq artisti Mahmud Esenbayev haqqında "Mən rəqs edəcəyəm" filmini, məhz azərbaycanlı rejissor Tofiq Tağızadə çəkib. 1980-ci ildə isə ilk çeçen bədii filmi olan "Dağ novellası"nda əsas baş rollardan birində Azərbaycanın məşhur aktyoru Rasim Balayev çəkilib. Bu gün ictimaiyyətimizin, cəmiyyətimizin müzakirə edəcəyi, bölüşəcəyi çoxlu belə mədəni əlaqələrin nümunələri var. Hətta idman yarışlarında belə azərbaycanlılar və çeçenlər arasında mübarizə simvolik xarakter daşıyır və qarşılıqlı hörmətlə müşahidə olunur.

Çeçenistan Respublikası üçün Azərbaycanla münasibətlər strateji xarakter daşıyır və ölkələrimiz arasında əməkdaşlıq ildən-ilə genişlənir və möhkəmlənir. Bu münasibətlər bütün sahələrdə, o cümlədən, ticari-iqtisadi sahədə, siyasət və mədəniyyət istiqamətlərində özünü göstərir. Xüsusilə, Azərbaycan və Rusiya arasında ikitərəfli münasibətlər çox uğurla inkişaf edir.

Məişət hadisəsinin şişirdilərək münaqişə kimi təqdim edilməsi yalnız təxribat məqsədi daşıya bilər. Ölkələrimizin mövqelərinin güclənməsi bəzi qüvvələri narahat etməyə bilməz və heç şübhəsiz ki, onlar xalqlarımız arasında düşmənçilik toxumu səpərək, öz çirkin niyyətlərini həyata keçirmək istəyirlər. Erməni lobbisi həmin hadisəni öz mənafeyi naminə şişirtməkdə və ona siyasi rəng verməkdə maraqlıdır. Xüsusilə, qeyd etmək lazımdır ki, bu təxribat onların Azərbaycan ilə Rusiya və xüsusən də, Çeçenistan arasındakı strateji tərəfdaşlıq münasibətlərini pozmaq istəyindən irəli gəlir. Moskvada baş verən insidentin bu cür əks-səda doğurması da, məhz həmin istəyin, həmin təsirin nəticəsidir. Lakin bu cəhdlər, yəni insidenti təxribata çevirmək cəhdləri, göründüyü kimi, əbəsdir və təsdiq olundu ki, heç bir qüvvə Azərbaycan və çeçen xalqları arasında tarixən formalaşmış dostluq və qardaşlıq münasibətlərinə xələl gətirə bilməz.

***İnam HACIYEV***

# Əli Kərimlinin bandası dağılır

*Fərari hesab olunan Eldəniz Quliyev*
*"Milli Şura"dan ayrılmağa qərar verib*



***Hər kəsə bəlli olan fakt ondan ibarətdir ki, Azərbaycanın iqtisadi, siyasi və hərbi gücü hər gün, ötən günə nisbətən, bir qədər də artır. Bu da, sapı özümüzdən olan dağıdıcı xislətli müxalifət yetkililəri ilə yanaşı, xarici maraqlı dairələri ciddi narahat edir. Ona görə də, küçə yürüşləri, mitinqlər, eləcə də, xaricdəki "söyüş qrup"ları vasitəsi ilə uğurlara kölgə salmağa çalışırlar.***

Bütün bunlar, bir daha təsdiq edir ki, dağıdıcı müxalif ünsürlər üçün xalq və millət anlayışı, sadəcə, boğazdan yuxarı populist fikirdən başqa bir şey deyil. Belələrinin dövlət, dövlətçilik və milli maraqların əleyhinə yönələn mövqeyinə ən tutarlı cavabı elə həmişə xalq verib. Müxalifətin əsas hədəfi xalqa və onun formalaşdırdığı müstəqil dövlətə qarşı yönəlib. Bu baxımdan, radikal qüvvələrin Azərbaycanda nədən hər vəchlə sabitliyin pozulmasına, anarxiyanın yaranmasına çalışmasının səbəbi, əslində, heç kimə sirr deyil. Çünki heç bir sosial bazası olmayan, xalqdan özünü təcrid edən radikal müxalifət yalnız bu halda xaricdən özlərinə maddi təminat əldə edə bilərlər.

## Müxalif düşərgədə yeni qarşıdurmalar yaranır

Bu faktlar müxalifət təmsilçilərinin, onların rəhbərlərinin öz düşərgəsində tez-tez etiraf edilən həqiqət, bəzən isə bir-birlərinə qarşı səslənən ittihamdır. İngiltərədə mühacir həyatı yaşayan hüquqşünas Qurban Məmmədovun Azərbaycan müxalifəti, eləcə də, xaricdəki müxalif mühacirlərlə qarşıdurması davam edir. Baxmayaraq ki, onun açıqlamaları, AXCP-də ciddi narahatçılıq yaratdığından, Ə.Kərimlinin trolları ona qarşı təhqiramiz ifadələr işlədirlər. Amma Q.Məmmədov qisas almaq mübarizəsindən əl çəkmir. Bu günlər sosial şəbəkələrdə yayılan səs yazısında da Q.Məmmədov İsa Qəmbər, Əli Kərimli, Pənah Hüseyn kimi siyasətçilərin adlarını qeyd edərək bunları deyib: "Pənah Hüseynin mənə atmacaları ilə bağlı sənə deyilənlərlə bağlı bircə xahişim var. Heç vaxt sənə kənardan deyilənlərə qiymət verməyi fikirləşmə. Qardaşım, mənim balaca quyruğum İsa Qəmbər, Əli Kərimli, Pənah Hüseynin əlində olsaydı, onlar indi məni çoxdan biabır etmişdilər. Onlar görürlər ki, onlara qarşı çox ciddi bir rəqib çıxıb". Araşdırmalar zamanı məlum olur ki, Q.Məmmədovun səs yazısı Fransada oturub, həyatını və fəaliyyətini Azərbaycan dövlətinə qarşı qarayaxma kampaniyasına səfərbər edən Vidadi İsgəndərli ilə telefon söhbətindəndir. Məsələ ilə bağlı P.Hüseyn qısaca bildirib ki, bu məsələyə münasibət bildirmək istəmir, amma qısa zamanda, bunun aradan qaldırılmasını vacib bilir.

## Qurban Məmmədov Eldəniz Quliyevi kütbeyin hesab edir

Q.Məmmədov "Milli Şura"nın üzvü Eldəniz Quliyevi də tənqid edib: "Bilirdim, ancaq bu qədər kütbeyin olduğunu bilmirdim, Eldəniz. Bu "ağıl-kamalla" sən çox uzağa gedəcəksən. Payını artırıblar deyəsən, nuş olsun".

O daha sonra E.Quliyevə xatırladıb ki, bir vaxtlar keçirdiyi mətbuat konfransında "Hardasınız, gəlin bu cəbhəçilərdən bizi xilas edin" deyə bağırırdı. "Bu mətbuat konfransını xatırlatdığım üçün mənə qızğınsan. Ancaq faktlar amansız olur. Başım indilik qarışıqdır, bir vaxt tapıb, səninlə haqq-hesab çəkəcəyəm" deyə bildirib. Maraqlıdır ki, E.Quliyevi ortaya atıb, onu-bunu tənqid etməyə təhrik edənlər Q.Məmmədovun ittihamlarına cavab verməyi yersiz hesab edirlər. Yəni E.Quliyevi Q.Məmmədov adlı problemlə baş-başa qoyurlar. Bu isə, maraqlı suallar ortaya çıxarır. Deməli, Ə.Kərimli, C.Həsənli və digərləri üçün E.Quliyev kimilər, sadəcə, icraçıdırlar, demək istədikləri dillərdir. Məhz bu kimi amillər müxalifətin dağılmasına, funksionerlərin sıradan çıxmalarına gətirib çıxarır. Daha doğrusu, artıq E.Quliyevin "çamadan" ovqatında olduğu və yaxın günlərdə "Milli Şura"dan gedəcəyi barədə məlumatlar dolaşır.

## "Milli Şura" arxivə göndərilir

Müxalifətin pərakəndə və dağınıq halda olması fonunda qarşıdurmaların yaşanması əksər partiyaları, o cümlədən, "Milli Şura"nın sıradan çıxacağından xəbər verir. Sual oluna bilər ki, niyə müxalifət proseslərdə rol oynaya bilmir? Hakimiyyətə gəlmək uğrunda anti-Azərbaycan dairələrə Dağlıq Qarabağı ermənilərə güzəştə gedəcəklərini vəd etmələri, ölkənin milli mənafeyini özlərinin və xidmət etdikləri qüvvələrin korporativ maraqlarına qurban verməyə hazır olmaları, məram və məqsədlərini anlamayan bir neçə gənci təxribatlar törətməyə təhrik etmələri də müxalifətin cəmiyyət tərəfindən qətiyyətlə rədd edilməsi səbəbləri sırasındadır. Qərb dövlətlərinin Bakıdakı səfirliklərində keçirdikləri görüşlər və Azərbaycanın maraqlarının satılmasına cəhdlərin göstərilməsi, dağıdıcı müxalifətin xalqın gözündən düşməsini şərtləndirən faktlardandır. Mövcud faktlara baxmayaraq, fəaliyyətini qərəzli xarici dairələrin dağıdıcı maraqlarının təmin olunması missiyası üzərində quran dağıdıcı müxalifət Azərbaycanda xaos yaratmaq üçün ən müxtəlif çirkin vasitə və üsullardan istifadə etməkdən çəkinmir. Bu da, dağıdıcı müxalifətin çirkin və yaramaz siyasətinin dəyişməsinin mümkün olmadığını göstərir. Bu cür müxalifət məhvə məhkumdur, necə ki, bunun artıq bütün elementləri açıq şəkildə görünməkdədir. Siyasi təhlilçilərin də, qeyd etdiyi kimi, əgər müxalifətin radikal hissəsi öz davranışını dəyişdirməsə, onların tamamilə Azərbaycanın siyasi həyatından silinməsi labüd xarakter daşıyacaq. Çünki bu, artıq cəmiyyətin tələbidir. Yəqin ki, yaxın günlərdə mətbuatda və sosial şəbəkələrdə daha bir neçə müxalif partiyanın fəaliyyətini dayandırdığı barədə məlumatlar oxuyacağıq.

**İ.ƏLİYEV**

# İnqilabi dəyişiklik pis nəticələr vəd edir

***"Baş nazir Nikol Paşinyanın iqtisadi inqilabla bağlı bəyanatları biznes və investorları qorxuya salacaq. Bu cür bəyanatlara böyük diqqət yetirilməlidir." Bunu "tert.am" saytına verdiyi müsahibəsində Yeni Ölkələr Beynəlxalq İnstitutunun direktoru Aleksey Martınov deyib. "İnqilabi yolla, siyasətdə və ya iqtisadiyyatda heç bir müsbət dəyişiklik ola bilməz. İqtisadiyyat tədricən inkişaf etməlidir, hər hansı kəskin inqilabi dəyişiklik pis nəticələrə səbəb olacaq" deyən Martınov Ermənistanda iqtisadi inqilab adlandırılan proqramı tənqid atəşinə tutub.***



"Keçmiş jurnalist kimi, o, ehtimal ki, fərqli metafora, məcazi dil istifadə etməyə məcburdur, lakin o, artıq bir jurnalist, bir müxalifətçi deyil, baş nazirdir və bir şərh verdiyi zaman son dərəcə ehtiyatlı olmalıdır. İqtisadi sahə ilə bağlı hər hansı bir şərhin, yaxud bəyanatın milli valyuta məzənnəsinə, eləcə də, digər təsirləri ola bilər" deyə Aleksey Martınov bildirib.

Ekspert bildirib ki, iqtisadiyyatda və biznesdə tətbiq olunan qaydalardakı kəskin dəyişikliklər asan deyil, itkilər geri qaytarılan da deyil.

"Paşinyan bu sahənin mütəxəssisi deyil, amma ekspertlərin, mütəxəssislərin, nisbətən təcrübəli lider kimi prezident Armen Sarkisyanın məsləhətinə qulaq assa, yaxşı olardı. Çox güman ki, Paşinyan məsləhətlərə qulaq asmır və diqqətsiz və ehtiyatsız bəyanatlar verir " deyə A.Martınov bildirib.

Onun sözlərinə görə, iqtisadiyyatın əvvəlki hökumətin oliqarxlarından təmizlənməsi populizmdir. "Bu cür bəyanatlar "küçə natiqləri" tərəfindən verilir və gəlin unutmayaq ki, Paşinyan onlardan biridir, amma indi o daha balanslı olmalıdır. Vergilərin kimin ödəməli, kimin isə ödəməməli olmasını təyin edən qanunlar var, Cinayət Məcəlləsi var, məhkəmə var. Ermənistanda bütün bunlar var, amma bunların hamısı fəaliyyət göstərməlidir" deyən Aleksey Martınov məsələyə öz münasibətini bildirib.

Məxməri inqilab günündən tezliklə bir il keçəcəyini söyləyən iqtisadçı qeyd edib ki, "istəyirsiniz buna çevriliş deyin, istəyirsiniz inqilab, bu hadisələr sosial və iqtisadi sferada özü ilə çətinliklər gətirir, amma insanların daha yaxşı olacağına gözləntilərini nəzərə almaq lazımdır."

Onun sözlərinə görə, sistemin işləməsi üçün ciddi işlər görülməlidir. "Yalnız rəhbərliyin səyi kifayət deyil, bütün cəmiyyət işləməlidir. Cəmiyyətdə bir insanı digər bir insanla əvəz etmək problemin həlli deyil. Axı bundan sonra heç bir şey dəyişməyib. Coğrafi, siyasi və ya iqtisadi dəyişiklik yoxdur və normal həyatın dəyişməməsi səbəbindən, məyus olan insanlar var. Əksinə, məişətdə və küçədə baş verən cinayətlərin sayı artıb. Hətta gizlətmək mümkün deyil ki, turistlər belə Yerevan ətrafında gecə gəzintisinin təhlükəsiz olmadığını hiss edirlər. Bunlar xırdalıqlardır, amma mövcud mənzərə elə xırdalıqlardan formalaşır.

İnkar etmək olmaz ki, bir il əvvəl hamını bezdirən Serj Sarkisyanın gedəcəyi bir möcüzə kimi görünürdü. O, baş nazir vəzifəsinə namizədliyini irəli sürməyəcəyi barədə vəd versə də, sonra guya ki, partiyanın istəyi ilə öz namizədliyini irəli sürdü və bu insanlarda narazılığa səbəb oldu. Beləliklə də, hakimiyyət Nikol Paşinyanın əlinə keçdi.

Hər şey rəngli inqilab ilə baş verdi. Amma heç nə dəyişmədi. İnsanların həyatında, yaşayışında dəyişən heç nə olmadı. İnqilabdan sonra nə bir yeni proqram ortaya qoyuldu, nə də proqrama oxşar bir ideya" deyə Aleksey Martınov bildirib.

Göründüyü kimi, Paşinyanın iqtisadi inqilab kimi adlandırdığı proqram və populist çıxışlarını bir ideya belə hesab edən yoxdur. Baş nazirin ideya belə adlandırması mümkün olmayan, utopik, eyni zamanda, populizmdən başqa bir şey olmayan çıxışlarını heç kim bəyənmir. Əksinə, bu ehtiyatsız, diqqətsiz bəyanatlarının və şərhlərinin acınacaqlı nəticələri gözlənilir.

Bir sözlə, artıq hamı tərəfindən qəbul olunur ki, Ermənistanda baş verən inqilab adı altındakı çevrilişlər, bu çevriliş sayəsində baş nazir postunu ələ keçirən Nikol Paşinyanın uydurduğu inqilabi dəyişiklik pis nəticələr vəd edir.

**İnam HACIYEV**

## "Cəmiyyət bunların kimliyini bilir"



"Bu gün Azərbaycan hüquqi bir dövlətdir. Burada istənilən vətəndaşın özünü ifadə etməsi üçün maksimum şərait yaradılıb. O cümlədən də müxalif fikirli insanların özlərinin ideyalarını cəmiyyətə açıq hava toplantıları vasitəsilə çatdırmasına da şərait yaradılıb. Yəni bu cür toplantılardan biri də mitinqlər və küçə yürüşləridir. Əlbəttə ki, müxalifət mitinq elan etməyə hüququ olan bir kəsimdir. Lakin ölkədə hansısa siyasi proseslərin getmədiyi, ümumiyyətlə hansısa siyasi kampaniyalar getmədiyi bir zamanda hər dəfə mitinq elan edib cəmiyyəti narahat etməyi əlbəttə ki, anlamaq çətindir". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Azər Həsrət deyib.

Yəni nə baş verir ki, bu adamlar küçələrə çıxıb mitinq etmək istəyirlər? Bu məsələnin birinci tərəfidir. İkincisi isə Azərbaycanda elə bir sabit sistem qurulub ki, bu ölkədə istənilən şəxs özünü güvənli hiss edir. Yəni burada sabitlik hər şeydən öndə gəlir. Belə bir şəraitdə mitinqlər, küçə yürüşləri çağıraraq, ümumiyyətlə nümayişkəranə şəkildə radikal addımlat atmağa çağıraraq bu sabitliyi pozmaq olmaz. O baxımdan həmin adamların nə etmək istədiklərini anlamaq bir tərəfdən çətindir, digər tərəfdən isə tam asandır. Ona görə ki, o adamlar həqiqətən də özlərinin tükəndiklərinin fərqindədirlər. Yəni bilirlər ki, ictimai rəydə yoxdurlar və cəmiyyət artıq onları çoxdan unudub. Azərbaycan siyasi hakimiyyəti ölkədə elə bir şərait yaradıb ki, insanlar azad şəkildə seçim edib öz siyasi tərəflərini müəyyənləşdirə biliblər. Belə bir şəraitdə o adamların, xüsusən də ictimai rəylə manipulyasiya edən şəxslərin, siyasi iddialıların unudulması təbiidir. Onlar unudulmaqlarını həzm edə bilmirlər. Ona görə də bu və ya digər şəkildə gündəmdə qalmaq üçün dəxli olmadan belə siyasi aksiyaların anonsunu verirlər. Əlbəttə ki, Azərbaycan cəmiyyəti bunların kimliyini bilir və ölkəmizi Suriyaya, İraqa çevirmək istəyənlərin əsil məqsədlərini hər kəs yaxşı anlayır. Ona görə də mən düşünürəm ki, bu adamların mitinq çağırışları uğurla nəticələnəcək"-deyə, siyasi şərhçi fikrini tamamlayıb.

# “Milli Şura” tarixin zibilliyinə atılacaq

*Müxalifətin mitinq keçirmək arzuları heç zaman reallığa çevrilməyəcək*

**Dağıdıcı müxalifətin xaricdən asılı olan ünsürləri yenidən mitinq keçirməyi və hay-küy salmağı planlaşdırırlar. Söz yox ki, əvvəlki mitinqlərdə olduğu kimi, bu dəfə də, onlar rüsvayçılıqla üzləşəcəklər. Söhbət etdiyimiz müsahiblərimiz indiki quruculuq-abadlıq işlərinin geniş vüsət aldığı, əhalinin güzəranının daha da yaxşılaşdığı məqamda, mitinqlərin keçirilməsinə heç bir zərurət olmadığını bildirdilər.**

Millət vəkili Fazil Mustafa: **“Rüstəm İbrahimbəyov Bakıda olsa da, müxalifət təmsilçiləri ilə təmas qurmadı”**



- Ümumiyyətlə, söhbət konstitusyon hüquqdan gedirsə, bu konstitusyon hüququ gerçəkləşdirmək hər kəsin özünün seçimidir. Lakin bütövlükdə, bu konstitusyon hüququ təxribat məqsədi ilə edəndə, onda, artıq bu aksiyaların özlərinin də niyyətinə kölgə düşür və bu, cəmiyyət tərəfindən də yaxşı qarşılanmır. Yəni aksiya keçirmək naminə aksiya keçirilməsi, ümumiyyətlə, təqdir olunan deyil. Amma bu hüquqdur və hər kəs belə bir hüquqdan istifadə etmə haqqına sahibdir. Amma bundan sui-istifadə etmək olmaz. Aksiyaların keçirilməsinə heç bir ehtiyac yoxdur. Kiminsə və nəyinsə hesabına addımlar atmaq cəmiyyətdə birmənalı qarşılanmır. Rüstəm İbrahimbəyov Bakıda olsa da, müxalifət təmsilçiləri ilə təmas qurmadı. O, açıqlamasında da “Milli Şura”ya hər hansı dəstək ifadə etmədi. Müxalif təmsilçilərinin özlərini zorla hansısa bir şəxsin çevrəsində olduğunu göstərərək, güclü olduqlarını təqdim etmələri doğru addım deyil. Hesab edirəm ki, bu kimi məsələlərdə cəmiyyəti aldatmaq olmaz.

TOHGMİB-nin sədri Emin Həsənli: **“Müxalifətin mitinq arzusu iflasa uğrayacaq “**

- Təəssüflər olsun ki, xaricdən maliyyələşən bir qrup var ki, onlar Azərbaycanda sabitliyi pozmaq istəyirlər. Həmin məkrli qüvvələr zaman-zaman xaricdən aldıqları tapşırıqları yerinə yetirməklə məşğuldurlar. Yəni ölkədə sabitliyi pozmaq və ölkəmizin əldə etdiyi uğurlara, nailiyyətlərə kölgə salmağa çalışırlar.



Amma onların nə düşünmələrindən və etmələrindən asılı olmayaraq, Azərbaycan dövləti öz uğurlu, parlaq siyasətini davam etdirir. Xalqımız Prezidentimiz tərəfindən aparılan uğurlu siyasətini dəstəkləyir və hər zaman əməli fəaliyyəti ilə Prezident İlham Əliyevin yanında olduğunu nümayiş etdirir. Müxalifət düşərgəsini təmsil edən şəxslərin yenidən aksiya keçirmək istəyinə düşmələri onların xarici qüvvələrdən maliyyə vəsaiti almaları ilə bağlıdır. Yəni müxaliflər xaricdən pul aldıqlarına görə, onların verdikləri tapşırıqları yerinə yetirməyə çalışırlar. Demək olar ki, müxalifət düşərgəsini təmsil edən qüvvələr, bir dəfə də olsun, Azərbaycan dövlətinin uğurlu bir siyasətini qeyd edib, onu dəstəkləməyiblər. Müxalifət olmaq olar, amma dövlətə və xalqa qarşı müxalifətdə dayanmaq olmaz. Demək olar ki, müxalifətçilər yaratdıqları QHT-lər adı ilə, xaricdən kifayət qədər maliyyə vəsaiti alırlar və bu maliyyə vəsaitinin də əsas mənbəyi ölkədə qarşıdurma yaratmaq, sabitliyi pozmağa yönəlməyə xidmət edir. Amma istəklərinə nail ola bilməyəcəklər.

“Azadlıq Hərəkatçılar Birliyi”nin sədri Təhmasib Novruzov: **“Abramyanı lider seçmək, müxalifətin təxribat maraqlarını açıq-aşkar ortaya qoyur”**

- Mitinqin kimə və ya kimlərə lazım olması bir az mücərrəd məsələdir. Dünyanın bütün demokratik ölkələrində müxtəlif problemlərlə bağlı (bu, həm daxili problemlə, həm də beynəlxalq problemlərlə bağlı ola bilər) mitinqlər keçirilir və xalq həmin problemlərə bağlı həm hakimiyyətin, həm də beynəlxalq qurumların diqqətini onun həllinə yönəltməyə çalışır. Bu mənada, si-vil, demokratik ölkələrdə mitinqlər, həmçinin, digər aksiyalar cəmiyyətin və bəşəriyyətin inkişafına mühüm töhfə verir. Mitinqlər o zaman zəruru, qaçılmaz əhəmiyyət daşıyır ki, ölkə daxili problemlərin həllinə hakimiyyət, ümumbəşəri problemlərin həllinə isə, beynəlxalq qurumlar laqeyd yanaşır, onun həlli üçün heç bir addım atmır. Lakin gərək olmadan mitinq keçirmək həvəskarları, siyasi xəstələr də var ki, onları hansısa problem və onun həlli deyil, özünün şəxsi ambisiyası, gündəmdə qalmaq, bəzi hallarda isə, hansısa qüvvələrin təxribat məqsədilə ayırdıqları maliyyə vəsaitlərini həzm-rabedən keçirmək kimi istəklər buna sövq edir. Təəssüflə deməliyəm ki, bu gün Azərbaycanda bu maraqlar üst-üstə düşən xəstə təxəyyüllü bir qrup yaranıb ki, bu da ölkəmizin inkişafına mane olmaqdan başqa, əhəmiyyətli heç nə vəd etmir. Bizim ölkədə xalqın hansı istəyi var ki, iqtidar onu qulaqardına vursun, həll etmək istəməsin? Bəzən, bizim bir vətəndaş olaraq, gözləntilərimizdən də irəli gedərək, xalqın müxtəlif problemlərinin həlli ilə bağlı ən yüksək səviyyədə addımlar atılır. Təkcə minimum əmək haqqının birdən-birə 180 manata qaldırılması haqqında Azərbaycan Respublikası Prezidentinin məlum Sərəncamı dediklərimizə bariz nümunədir. Yəni əgər iqtidar xalqın problemlərini özü araşdırıb, müəyyən edib, bu problemləri aradan qaldırmaq üçün qətiyyətli addımlar atırsa, o zaman hansı ölkədaxili həll olunmayan problemdən danışmaq olar ki, bunun üçün meydanlara axışıb mitinq keçirilə? Bu gün Azərbaycanda mitinq keçirmək istəyənlər, birbaşa Azərbaycanı sevməyən qüvvələrin maraqlarına xidmət edirlər. Bu, birmənalıdır və xalq da bunu yaxşı anladığından, belə aksiyalara dəstək vermir. Bu gün yalnız sənədlərə əsasən, azərbaycanlı hesab edilən, əslində, nəinki azərbaycançılıqdan xəbərsiz olan, hətta



hüquqi baxımdan mənsub olduğu xalqa qənim kəsilən Rüstəm İbrahimbəyovu, əslində, Abramyanı özünə lider seçmək, hər vasitə ilə onun Azərbaycana gəlişinə çalışmaq, bu insanların təxribat maraqlarını açıq-aşkar ortaya qoyur. Bu adam bütün yaradıcılığı boyu millətimizi aşağılamağı, onu barbar kimi təqdim etməyi özünə amal seçib. Bəyəm, onun gəlişinə can atanlar, bunu bilmirlərmi? Deməli, bu insan adlanan dördayaqlıların nə Azərbaycanın dövlətçilik və milli maraqları, nə də xalqın həyat səviyyəsi maraqlandırır. Bayaq dediyim kimi, onlara mitinq və ya digər aksiyalarla xarici qüvvələrin diqqətini özünə cəlb etmək, nəticədə, həmin anti-Azərbaycan qüvvələrin ayırdıqları milyonları əldə etmək maraqlıdır. Çox təəssüf ki, acınacaqlı da olsa, bu, həqiqətdir.

***GÜLYANƏ***

# Qanunsuz dövriyyədən 2,2 kiloqram narkotik vasitə çıxarılıb



Polis əməkdaşlarının keçirdikləri əməliyyat tədbirləri nəticəsində 2,2 kiloqram narkotik vasitə qanunsuz dövriyyədən çıxarılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən bildiriblər ki, Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında Salyan rayon sakini E.Soltanovun Yeni Günəşli qəsəbəsi ərazisində kirayədə yaşadığı mənzildə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində 408 qrama yaxın marixuana və metamfetamin aşkarlanaraq götürülüb.

Yasamal Rayon Polis İdarəsinin 27-ci polis bölməsi əməkdaşlarının əldə edilmiş məlumat əsasında Bakı şəhər sakini, əvvəllər məhkum olunmuş Ç.Hacıyevin evində keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində isə 1,8 kiloqrama yaxın heroin götürülüb. Hər iki faktla bağlı cinayət işi başlanıb, istintaq aparılır.

# Əli Kərimli separatçılardan bəhrələnir

*Nə qədər ki, gec deyil, belə tör-töküntülərin qarşısı zamanında alınmalıdır!*




***AXCP sədri Əli Kərimlinin dirijor çubuğu ilə idarə olunan “Milli Şura”nın erməni lobbisi ilə yanaşı, separatçılarla da iş birliyi barədə məlumatların mövcudluğu ilk deyil. Bu barədə dəfələrlə yazılıb, faktlar ortaya qoyulub. Bununla bağlı təkcə bir faktı - “Milli Şura”nın aparıcı fiqurantlarından olan Eldəniz Quliyevin vaxtilə “Talış-Muğan Respublikası” deyilən separatçı qurumda Əlikram Hümbətovun yanında yer almasını xatırlaya bilərik.***

### Mehdibəy Səfərov separatçı partiya yaradır, “Milli Şura”nın əsas fiqurantlarından olan Eldəniz Quliyev isə onun statuslarını bəyənir (?!)

Bu arada, Ermənistanda separatçı meyillərini davam etdirən Ə.Hümbətovun, necə deyərlər, “sağ əli” hesab edilən daha bir separatçı - hazırda özünə “Xalqların Demokratik Partiyası” adlı separatçı siyasi təşkilat qurmağa hazırlaşan Mehdibəy Səfərovu da xatırlaya bilərik. Bu, həmin M.Səfərovdur ki, irqçi, bölücülük və separatçılıq meyilləri ilə erməniləri özünə qardaş hesab etdiyini, Türk dünyasını isə “talış xalqının bir nömrəli düşməni” kimi qəbul etdiyini sosial şəbəkələr vasitəsi ilə bəyan etmişdi. İndi isə, bu “adam” özünə partiya yaradır və maraqlısı da budur ki, AXCP sədri Ə.Kərimlinin həndəvərində quyruq bulayan E.Quliyev isə onun Facebook vasitəsi ilə paylaşdığı statuslarını dəstəkləyir.

### Söz yox ki, bu mövqe onun milli satqınçılıq fəaliyyətinin bariz sübutudur!

Maraqlıdır, deyilmi? Bu gün hakimiyyətə iddialı olan Ə.Kərimlinin ən yaxın ətrafı separatçılığı dəstəkləyirlər və söz yox ki, AXCP sədrinin bundan kifayət qədər xəbəri var. Varsa, bu kimi xəyanətə göz yumursa, demək Ə.Kərimlinin özü də separatçılığı təbliğ edir. Düzdür, bu gün onun xaricdəki anti-Azərbaycan dairələri ilə iş birliyini sübut edən yüzlərlə faktlar var, həmin faktlar içində Kərimlinin, hətta erməni lobbisinin maliyyələşdirdiyi qrant təşkilatları ilə Gürcüstan vasitəsi ilə də bank rabitəsi mövcuddur, amma nədənsə, o, hələ də ünvanlanan suallara cavab vermir. Əksinə, Azərbaycanın güclənməsinə və qüdrətlənməsinə qarşı düşmənçilik mövqeyini sərgiləyir. Söz yox ki, bu mövqe onun milli satqınçılıq fəaliyyətinin bariz sübutudur!

AXCP sədri Ə.Kərimlinin və yanında dolaşan “Ziyalılar Forumu” adlı saxtakar qurumun rəhbərlərindən olan E.Quliyevin barəsində bənzər faktlar kifayət qədərdir. Ancaq onlar hələ də azadlıqda gəzirlər və əksinə, Azərbaycanın dövlətçilik maraqlarına qarşı separatçılıq meyillərini daha da gücləndirirlər. Buna qarşı isə, yalnız mətbuat və bir sıra siyasilər cavab verirlər. Yəqin ki, artıq hüquq-mühafizə orqanlarının, o cümlədən, müvafiq qurumların da həmin dövlət xainləri ilə bağlı ölçü götürmələrinin zamanıdır. Nə qədər ki, gec deyil, belə tör-töküntülərin qarşısı zamanında alınmalıdır!

***Rövşən RƏSULOV***

# AZƏRBAYCAN MƏDƏNİYYƏTİNİN TƏBLİĞİ

***Rusiya paytaxtında isə "Birlik ulduzları" dövlətlərarası mükafat laureatlarının təntənəli təltif edilmələri mərasimi olmuşdur. Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevaya humanitar fəaliyyət sahəsində "Birliyin ulduzları" mükafatı təqdim edilmişdir. Bu yüksək mükafat MDB iştirakçısı olan dövlətlərin Humanitar Əməkdaşlıq Şurası və MDB iştirakçısı olan ölkələrin Dövlətlərarası Humanitar Əməkdaşlıq Fondu tərəfindən təsis edilmişdir. Məlumat üçün bildirək ki, "Birlik ulduzları" dövlətlərarası mükafatı hər il elm, təhsil, mədəniyyət və incəsənət sahələrində böyük uğur və töhfələrə, dünya nailiyyətləri səviyyəsinə uyğun olan və MDB ölkələrinin humanitar əməkdaşlığına şərait yaradan humanitar fəaliyyətə görə verilir.***

Mehriban xanım Əliyevaya məzunu olduğu İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin fəxri professoru adı da verilmişdir. Fəxri professor xatirə nişanının və diplomunun təntənəli təqdimat mərasimindən sonra Azərbaycanın Birinci Xanımı Mehriban Əliyeva bildirmişdir: "Mən bütün bu tədbirlərin təşkil olunmasında, məni hər iki mükafatla təltif etmək qərarının qəbul olunmasında iştirak edənlərin hamısına təşəkkür etmək istəyirəm. Demək istəyirəm ki, biz bu gün Azərbaycanda, həqiqətən, öz ölkəmizlə fəxr edirik. Əminəm ki, buradakıların əksəriyyəti bizim ölkəmizdə olub və onlar mənim nə demək istədiyimi yaxşı başa düşürlər. Çünki 20 il tarixi baxımdan o qədər də böyük vaxt olmasa da, qısa müddət ərzində, ölkəmiz böyük nailiyyətlər əldə edib. Biz azərbaycanlılar fəxr edirik ki, bu gün Azərbaycanın adı beynəlxalq aləmdə səslənir, ölkəmizin insanları daha yaxşı yaşamağa başlayıblar, həyatımızın bütün sahələrindəki tərəqqini elə ilk baxışdan görmək olar. Buna görə də, indi mən sizin aranızda olarkən demək istəyirəm ki, hamınızı Azərbaycanda görməyimizə çox şad olardıq. Sizin hamınızı salamlamağa şad olardıq. Bizim ümumi keçmişimiz vardır və bizi çox şey birləşdirir. Hansı proseslər, hansı dəyişikliklər baş versə də, bu keçmişi silmək və unutmaq mümkün deyildir. Onu heç unutmaq lazım da deyildir".

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz əməli fəaliyyəti ilə milli ənənələrimizlə yeniləşən dünyamıza həyan oldu, onları ayağa qaldırdı, bu ənənələrin yüksəlişinə təkan verdi. İndi on minlərlə Azərbaycan gənci bu yolda Mehriban xanım Əliyevanın ardıcılıdır. Bu yolun davamlılığını, inkişafını təmin edən gənclərimiz sırasında öz vətənpərvərliyi, mənəvi-əxlaqi keyfiyyətləri, Azərbaycan sevgisi, Heydər Əliyev ideyalarına sadiqliyi ilə bütün Azərbaycan gəncliyi üçün örnəyə çevrilmiş, yeni nəsil Azərbaycan gəncliyinin lideri Leyla xanım Əliyevanın olması da, görünür, zamanın xoş bir töhfəsidir.

Samir Mustafayev yazır: "Heydər Əliyev Fondunun vitse-prezidenti, fondun Rusiya nümayəndəliyinin rəhbəri, Rusiyanın Azərbaycanlı Gənclər Təşkilatının rəhbəri Leyla xanım Əliyeva öz fəaliyyəti ilə Azərbaycana sonsuz sevgisini illərdir sübuta yetirməkdədir".

Məlum olduğu kimi, Heydər Əliyev Fondunun ən müxtəlif sferalarda həyata keçirdiyi proqramların irəliləyişini təmin edən əsas mexanizm vətəndaş diplomatiyasıdır. Rusiyada bu diplomatiyanın siması və bilavasitə icraçısı Leyla Əliyevadır. Heydər Əliyev Fondunun ölkə hüdudlarından kənardakı ilk nümayəndəliyinin, məhz Rusiyada açılması da səbəbsiz deyildir.

Məlumdur ki, Azərbaycanla Rusiyanı təxminən iki əsrə yaxın ortaq tarixi keçmiş, bu keçmişin formalaşdırdığı ənənə və dəyərlər bağlayır. Şimal qonşumuzla qarşılıqlı hörmətə əsaslanan mehriban dostluq münasibətlərinin bu dəyərlər üzərində inkişafı hər iki ölkə üçün çox mühümdür. Rusiya ilə əlaqələrin genişləndirilməsinin vacibliyinə toxunan Leyla Əliyeva da fondun ilk nümayəndəliyinin Rusiyada açılmasını, məhz bu prizmadan qiymətləndirir: "Heydər Əliyev Fondunun fəaliyyəti genişlənir və bütün dünyanı əhatə etməyə başlayır, lakin Rusiya ilə əlaqələr xüsusi əhəmiyyət kəsb edir. Biz fondun fəaliyyətinin təkcə Azərbaycanla məhdudlaşa bilməyəcəyini və onun öz əhatə dairəsini genişləndirməli olduğunu başa düşəndə, təbii ki, əməkdaşlıq üçün ilk məkanlardan biri Rusiya oldu".

Leyla Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun Rusiya nümayəndəliyi 2007-ci ilin mayından - fəaliyyətə başladığı dövrdən Azərbaycan milli-mənəvi dəyərlərinin, mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının təbliği və diaspor hərəkatının genişləndirilməsi istiqamətində böyük işlərə imza atmışdır.

Mehriban Əliyeva Türkiyənin nüfuzlu "Ekovitrin" jurnalı tərəfindən keçirilmiş rəy sorğusunun nəticələrinə əsasən, 2011-ci il üzrə "İlin Birinci Xanımı" (First lady) seçilmişdir. Jurnalda Azərbaycanın Birinci Xanımı Mehriban Əliyevanın tərcümeyi-halı, ictimai-siyasi fəaliyyəti, indiyədək layiq görüldüyü mükafatlar, ölkəmizlə bağlı həqiqətlərin təbliği sahəsindəki xidmətləri barədə yazı da verilmişdir.

2013-cü il iyunun 7-də Yeni Azərbaycan Partiyasının Sədr müavini vəzifəsinə seçilən Mehriban xanım Əliyeva 2013-cü ilin dekabrında Pakistanın "Şəhid Bənazir Bhutto Qadın Mükəmməlliyi Mükafatı-2013" mükafatına layiq görülmüş, 2014-cü ilin mayında isə sivilizasiyalararası dialoqa verdiyi töhfələrə, həmçinin, Almaniyada Türk dünyasının tanıdılmasına, Azərbaycan-Almaniya əlaqələrinin inkişafındakı xidmətlərinə görə, Türk-Alman Dostluq Federasiyasının fəxri mükafatı ilə təltif edilmişdir.

Azərbaycanın ictimai, sosial və mədəni həyatında fəal iştirakına, cəmiyyətin dinamik inkişafına verdiyi mühüm töhfələrə, Azərbaycan mədəniyyətinin dünyada təbliği sahəsində əvəzsiz xidmətlərinə, həmçinin, ümumdünya mədəni irsinin qorunub-saxlanması işinə hərtərəfli dəstəyinə, sosial ədalət və humanizm prinsiplərinə sadiqliyinə görə, "The Business Year" jurnalı tərəfindən 2014-cü ilin mayında Mehriban xanım Əliyeva "İlin Birinci Xanımı" mükafatına layiq görülmüşdür. 2014-cü ilin iyununda Olimpiya dəyərlərinin təbliğindəki xidmətlərinə görə, Beynəlxalq Olimpiya Akademiyasının "Olympic Excellence" xüsusi fəxri mükafatı ilə təltif olunmuşdur. 2014-cü ilin avqustunda "Həştərxan vilayəti qarşısında xidmətlərinə görə" ordeni ilə və islam mədəni irsinin dünyada geniş təbliği, Azərbaycanda və ölkə hüdudları xaricində nəcib xeyriyyə fəaliyyəti, təhsilə, tibbə verdiyi böyük töhfələrə görə Küveyt Dövlətinin Fəxri diplomu ilə təltif olunmuşdur.

Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva öz əməli fəaliyyəti ilə milli ənənələrimizlə yeniləşən dünyamıza həyan oldu, onları ayağa qaldırdı, bu ənənələrin yüksəlişinə təkan verdi. İndi on minlərlə Azərbaycan gənci bu yolda Mehriban xanım Əliyevanın ardıcılıdır. Bu yolun davamlılığını, inkişafını təmin edən gənclərimiz sırasında öz vətənpərvərliyi, mənəvi-əxlaqi keyfiyyətləri, Azərbaycan sevgisi, Heydər Əliyev ideyalarına sadiqliyi ilə bütün Azərbaycan gəncliyi üçün örnəyə çevrilmiş, yeni nəsil Azərbaycan gəncliyinin lideri Leyla xanım Əliyevanın olması da, görünür, zamanın xoş bir töhfəsidir.



***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 20 fevral

## Həkimlərdən xərçəng xəstələrinə siqaret qadağası: "Yolverilməzdir!"



Bir çox xərçəng xəstələri diaqnoz qoyulduqdan sonra da siqaret çəkməkdə davam edirlər. Lakin məlum olub ki, siqaret bədənin müqavimət gücünü parçalayır. "MEDdaily" saytında yer alan məlumatda deyilir ki, hazırda və əvvəllər siqaret çəkmiş insanların heç vaxt siqaret çəkməyənlərlə müqayisədə xərçəng diaqnozu müəyyən edildikdən 10 il sonra 40 faizi sağ qalır.

Siqaret çəkənlərin immun sisteminin reaksiyası, xüsusən də söhbət dəri xərçənginə qarşı mübarizədən gedirsə, daha az təsirli fəaliyyət göstərir. Bunu Lids Universiteti müəyyən edib. Alimlərin sözlərinə görə, siqaretçəkmə "immun orkestri"ndə disbalans əmələ gətirir. Melanoma diaqnozu olan 700-dən çox pasiyentin məlumatları üzərində aparılan tədqiqatlar göstərib ki, siqaretçəkənlər 40 faiz az sağalma əmsalına malik olublar.

Melanomadan ölənlərin çoxu hazırda və keçmişdə siqaret çəkənlər olub. Düzdür, alimlər xərçəng xəstələrinə hansı miqdarda çəkilən siqaretin təsir edə biləcəyini dəqiqləşdirməyiblər. Lakin bir şey dəqiq məlumdur: siqaret əvvəldən daha güclü immun sistemi olan insanlarda sağalma əmsallarını azaldıb.

## Güclü qida psixikanı depressiyadan qoruyur



Qərbi Sidney Universitetinin mütəxəssisləri bildiriblər ki, psixikanı sağlamlaşdırmaq və depressiyaya düşməmək üçün insanın xüsusi pəhrizə ehtiyacı yoxdur. Qida rasionunu hər hansı şəkildə yaxşılaşdırmaq bu baxımdan daha faydalıdır. AZƏRTAC "MedikForum"a istinadla xəbər verir ki, 45 826 insanın iştirakı ilə tədqiqatların meta-təhlil məlumatları bunu göstərir.

Avstraliyalı tədqiqatçılar müxtəlif pəhrizlərin depressiya və həyəcan hissinə təsirinin yoxlanıldığı bütün klinik sınaqlar barədə indiyədək mövcud olan məlumatları toplayıblar. Nəticədə alimlər bu qənaətə gəliblər ki, psixikanı xoşagəlməz əlamətlərdən qorumaq üçün müəyyən pəhrizə əməl etməyə ehtiyac yoxdur. Bunun üçün qidalanmanı yaxşılaşdırmaq kifayətdir.

Bəs mütəxəssislər "güclü qida" anlayışını necə başa düşürlər? Layihə müəllifləri deyiblər: "Biz əmin olduq ki, rasionda fastfudun və rafinə edilmiş şəkərin miqdarını azaltmaq, vitaminlərlə, bəsləyici maddələrlə və sellülozla zəngin məhsulların payını artırmaq lazımdır". Tədqiqatçılar əlavə ediblər ki, güclü qida xüsusən qadınları arzuolunmaz psixi pozuntu əlamətlərindən müdafiə edir.

## Diqqət: Xərçəng riskini artıran ərzaq açıqlandı!



ABŞ-ın A.M.Anderson adına Onkoloji Mərkəzinin alimləri xərçəng xəstəliyi riskini artıran ərzaq məhsulu barədə məlumat veriblər. Saglamolun.az bildirir ki, bu barədə food.news məlumat yayıb. Tədqiqatlar şəkərin xərçəng şişlərinin böyüməsinə müsbət təsir etdiyini göstərib. Alimlərin siçanlar üzərində apardıqları sınaqlarda məlum olub ki, şəkərsiz nişasta pəhrizi ilə bəslənən xəstə siçanlarda xərçəng şişləri böyüməyib və sabit qalıb. Şəkərli qidalar verilən xəstə siçanlarda isə bədxassəli şişlər sürətlə böyüməyə başlayıb.

Mütəxəssislər xərçəng və diabet xəstəliklərinin qarşısını almaq üçün, şəkərdən istifadəni minimuma endirməyi məsləhət görürlər.

## Boks üzrə Azərbaycan millisi "Strandja" turnirində iki bürünc medal qazanıb



Bolqarıstanın paytaxtı Sofiyada boks üzrə ənənəvi "Strandja" turnirində yarımfinal mərhələsinə yekun vurulub. Bu mərhələdə Azərbaycan millisinin iki üzvü qüvvəsini sınayıb. AZƏRTAC xəbər verir ki, 70-ci dəfə təşkil edilən turnirdə 91 kiloqramdan yuxarı çəki dərəcəsində mübarizə aparan Məhəmməd Abdullayev yarımfinalda amerikalı Riçard Torres ilə üz-üzə gəlib. Gərgin keçən görüş rəqibin qələbəsi ilə başa çatıb.

Komandamızın digər boksçusu Aynur Rzayeva (75 kq) da yarımfinalda mübarizəni dayandırıb. O, ABŞ boksçusu Naomi Qrahama məğlub olub. Beləliklə, hər iki boksçumuz yarışı bürünc medalla başa vurub.

## "Qırmızı şeytanlar"dan David de Xeaya fantastik təklif!




"Mançester Yunayted" mövsümün sonunda komanda ilə müqaviləsi başa çatacaq David de Xeaya fantastik şərtlərlə yeni sözləşmə təklif etməyə hazırlaşır.

Qol.az-ın Britaniya mətbuatına istinadən yaydığı xəbərə görə, "qırmızı şeytanlar" ispaniyalı qolkiperə həftəlik 365 min funt-sterlinq (təqribən 471 min dollar) verməyə hazırdır. 28 yaşlı qapıçı "Mançester Yunayted"də qalmağa razılıq versə, o, komanda yoldaşı Aleksis Sançes və "Arsenal"dan Məsut Özili geridə qoyaraq, Premyer Liqanın ən çox qazanan oyunçusu olacaq.

Qeyd edək ki, 2011-ci ildən Mançester təmsilçisinin şərəfini qoruyan De Xea ilə PSJ yaxından maraqlanır.

## İngiltərə kubokunun 1/4 final mərhələsinin püşkü atılıb



Futbol üzrə İngiltərə kubokunun (FA) 1/4 final mərhələsinin püşkatma mərasimi keçirilib. Püşkatmaya əsasən "Suonsi Siti" klubu "Mançester Siti" ilə, "Votford" "Kristal Palas"la, "Vulverhempton" "Mançester Yunayted"lə, "Milluoll" isə "Brayton"la qarşılaşacaq. Dörddəbir finalin oyunları martın 15-dən 18-dək keçiriləcək. Qeyd edək ki, turnirin son çempionu "Çelsi" səkkizdəbir final mərhələsində "Mançester Yunayted"ə məğlub olub (2:0).

## İndoneziya 2032-ci ildə Olimpiya Oyunlarına ev sahibliyi edəcək?



İndoneziya 2032-ci ildə keçiriləcək Yay Olimpiya Oyunlarına ev sahibliyi etmək üçün namizədliyini irəli sürüb. Bu barədə İndoneziyanın Antara informasiya agentliyi məlumat yayıb. İndoneziya ötən il Asiya Oyunlarının uğurlu təşkilindən sonra 2032-ci ildəki olimpiadaya ev sahibliyi etmək qərarına gəlib. Bu ölkənin İsveçrədəki səfiri Muliaman Hadad Beynəlxalq Olimpiya Komitəsinə (BOK) İndoneziya Prezidenti Coko Vidodonun adından məktub təqdim edib. O bildirib ki, BOK 2018-ci ildə Asiya Oyunlarından və Asiya Paralimpiya Oyunlarından sonra İndoneziyanın təşkilatçılıq qabiliyyətinə bələd olub. Xatırladaq ki, Koreya Respublikası və Koreya Xalq Demokratik Respublikası da 2032-ci ildəki olimpiadaya birgə ev sahibliyi ilə əlaqədar müraciət etməyi planlaşdırır.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**